Xalqın qəzeti!

# Xalq qəzeti

№ 179 (30583) 22 avqust 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında növbəti ünvan: BRICS




**Azərbaycan ötən illər ərzində beynəlxalq müstəvidə özünü etibarlı tərəfdaş kimi təsdiq edib. Eyni zamanda, həyata keçirilən uğurlu siyasət dövlətimizin əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirib, dinamik inkişafı şərtləndirib. Təbii ki, respublikamızın sürətli inkişafı, iqtisadi gücünün artması, əhalinin rifahının yüksəlməsi bir sıra digər məsələlərdə təsiredici rol oynayıb. Əldə edilən uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirib.**

Bu gün əminliklə qeyd edə bilərik ki, ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Son bir neçə ildə Azərbaycanın qazandığı uğurlar, hərtərəfli iqtisadi nailiyyətlər respublikamızı regionda güc mərkəzlərindən birinə çevirir, bütün beynəlxalq təşkilatlar, çox sayda nüfuzlu dövlət ölkəmizə ciddi maraq göstərir, yaxın olmaq, tərəfdaşlıq etmək istəyir.

Həyata keçirdiyi balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlarda da uğurla təmsil olunur. BMT, Avropa İttifaqı, NATO, İƏT kimi dünya siyasətində söz sahibi olan təşkilatlarda respublikamızla əməkdaşlıq strateji prioritet kimi müəyyənləşdirilir.

*(ardı 7-ci səhifədə)*

# Qatarlar Naxçıvana gedəcək!

## Erməni XİN-in anti-Lavrov mövqeyinə sözardı

**Məlum olduğu kimi, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov ölkəsinin "Birinci kanal"ına müsahibəsində Ermənistanı ittiham edib. Prezident Vladimir Putinin Bakı səfəri ənasında Lavrovun rəsmi İrəvana yönəlik bəyanatı adi məsələ sayıla bilməz. Çünki səfərdən əvvəl Rusiyada rəsmi səviyyədə səslənmiş fikirlər onu deməyə əsas verirdi ki, Putin ölkəmizə həm də Moskvanın Azərbaycan – Ermənistan münasibətlərinin normallaşmasındakı rolunu artırmaq məramı ilə gəlib. Nəzərə alsaq ki, son dövrlər bu rol, demək olar, minimuma enmişdi, hazırda belə bir gündəliyin meydana çıxması Rusiyanın özünü xatırlatmaq istəyi kimi dəyərləndirilə bilər. Bu istəyə qarşı Ermənistandan mənfi reaksiya var. Yazımızda əsasən bu barədə söz açacağıq. Ancaq əvvəlcə Lavrovun konkret nə dediyinə diqqət yetirək.**



Beləliklə, Rusiyanın XİN rəhbəri bildirib ki, Ermənistan regional kommunikasiyaların açılmasını sabotaj edir: "Biz sülh müqaviləsinin tezliklə bağlanması və kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təəssüf ki, Ermənistanın Sünik rayonundan keçən kommunikasiyalara gəldikdə, məhz Ermənistan rəhbərliyi baş nazir Nikol Paşinyanın imzaladığı razılaşmanı sabotaj edir. Belə bir mövqenin mənasının nədən ibarət olduğunu dərk etmək çətindir. Mən əminəm ki, üçtərəfli sənədlər çərçivəsində qoyulan özül tam həcmdə aktuallığını qoruyub saxlayır".

*(ardı 3-cü səhifədə)*

## "Odlar yurdu"nun qazı Xankəndidə də alovlanacaq



Səhifə ⇨ 2

# Milli neft şirkətimizin enerji keçidinə ilkin töhfələri

## Gerçəkləşdirilən 3 layihə 1 milyon ton karbonlaşmanın qarşısını alacaq




**Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti qlobal enerji bazarlarında özünün mövqelərini möhkəmləndirmək və fəaliyyətini şaxələndirmək əzmindədir. Belə ki, bir zamanlar neft və qaz şirkəti kimi tanınan, indi isə dekarbonizasiya yolunda inamla irəliləyən SOCAR enerji keçidi dövründə lider kimi mövqeyini möhkəmləndirməkdədir. Bütün bunlar, eyni zamanda, SOCAR-ın davamlı inkişafı məqsədilə müəyyənləşdirilən strateji hədəflər sırasındadır.**

*(ardı 8-ci səhifədə)*

# Qayıqdan qayığa tullanmaq təhlükəli biclikdir

## Belarus liderinin bu ismarıcı erməni cəmiyyətində təlatüm yaradıb

**"Heç kim, o cümlədən Aleksandr Lukaşenko düşünməsin ki, o, Ermənistanla Nikol Paşinyanla danışdığı kimi danışa bilər". Bunu Ermənistan milli assambleyasında "Mənim şərəfim var" fraksiyasının rəhbəri Hayk Mamicanyan deyib. O, hesab edir ki, hayların xarakterik xüsusiyyətlərindən biri qürur olub və onu gec-tez "bərpa edəcəklər".**

Bəs, iqtidar deputatını "cin atına mindirən" nədir ki, o, Belarus Prezidentinin ünvanına belə kəskin danışır? Oxuculara xatırladaq ki, Lukaşenko Ermənistan hakimiyyətinin yürütdüyü siyasəti tənqid edərək demişdi: "Ermənilər bizdən başqa kimə lazımdır? Heç kimə! İqtisadiyyatlarını inkişaf etdirsinlər, ehtiyatlarına diqqət yetirsinlər. Bunu Fransa edəcək, yoxsa Makron? Sabah o gedəndə hamı Ermənistanı unudacaq".

Əvvəlcə onu deyək ki, Aleksandr Lukaşenkonun əlində rəsmi İrəvanı qınamağa kifayət qədər fakt və arqument var. Onun üç gün əvvəl "Rossiya" telekanalına müsahibəsində səsləndirdiyi



bu fikirlər heç də məntiqdən uzaq deyil. Belarus liderinin Ermənistana reallığı nəzərə alaraq bölgə ölkələri ilə münasibətləri inkişaf etdirməyi məsləhət görməsi isə konkret amillərlə əsaslandırıla bilər. Minsk bundan əvvəl də Ermənistanın "başına ağıl qoymağa" təşəbbüs göstərmişdi. Aydın məsələdir ki, bu təşəbbüslər həm də Kremlin mövqeyindən irəli gəlir.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1** 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989–2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 21 avqust 2024-cü il**

# QMİ-nin sədri G20 Dinlərarası Forumda




**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Braziliyada səfərdədir. Səfər çərçivəsində keçirilən G20 Dinlərarası Forumunda iştirak edən Şeyxülislam A.Paşazadə qurumun prezidenti Kol Durhamla görüşüb.**



Görüşdə dini liderlərin siyasi xadimlər və hökumətlərlə əməkdaşlığa cəlb olunmasının əhəmiyyəti vurğulanıb, dialoqun səmərəli şəkildə davam etməsindən məmnunluq ifadə olunub. G20 Braziliya Zirvə görüşünün əsas mövzularının qida təhlükəsizliyi, ətraf mühitin qorunması, sülh quruculuğu, kasıb ölkələrlə zəngin dövlətlər arasında münasibətlər, insan alveri və müasir quldarlıq olduğu diqqətə çatdırılaraq, dini liderlərin bu mövzulara dair mənəvi dəyərləndirməsinin zəruriliyi diqqətə çatdırılıb.

“Heç kimi unutmayaq: insanlar və planet üçün tərəfdaşlıq” mövzusunda keçirilən tədbirdə A.Paşazadə vurğulayıb ki, ümumi evimiz olan Yer kürəsində insan həyatına olan təhdid və təhlükələrin artdığı müasir dövrdə siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılması qlobal zərurətdir.

Müasir dünyada törədilən ekoloji və müharibə cinayətləri, ekosistemin pozulması, münbit torpaqların yararsız hala salınması səbəbindən yaşanan qıtlıq, qida çatışmazlığı, ərzaq təhlükəsizliyi kimi bəşəriyyəti təhdid edən problemlərə toxunan şeyxülislam forumun sülh və əmin-amanlığı tərənnüm etməsini, münaqişələrə, bərabərsizliyə son qoymağa çağırmasını, bəşəri narahat edən aclıq, yoxsulluq, ərzaq təhlükəsizliyi, ətraf mühit, dini etiqad azadlığının, uşaq, qadın və gənclərin hüquqlarının qorunması kimi mühüm problemlərə diqqət ayırmasını yüksək qiymətləndirib.

Şeyxülislam A.Paşazadə forum iştirakçılarının diqqətinə çatdırıb ki, ekoloji böhran, iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması bu ilin noyabrında Bakıda COP29-da müzakirə olunacaq və bu toplantı çərçivəsində iqlim problemlərinin mənəvi dəyərləndirilməsində dini liderlər yaxından iştirak edəcəklər.

Braziliyanın G20 Zirvəsinə və COP30-a ev sahibliyi etmək şərəfinə layiq olmasını yüksək dəyərləndirən şeyxülislam BMT-nin COP sessiyalarına sədrlik edən Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın davamlı əməkdaşlıq platformasında – COP sədrləri üçlüyündə bir araya gəlməsini böyük əhəmiyyət daşıyan hadisə olaraq səciyyələndirib.

**XQ**

# YAP Mərkəzi Aparatında görüş

**Avqustun 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Müstəqil Dövlətlər Birliyi müşahidə missiyası qərargahının rəhbəri Oleq Kuleba arasında görüş keçirilib.**



YAP-ın mətbuat xidmətindən bildirilib ki, görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Oleq Kuleba MDB müşahidə missiyasının 2003-cü ildən etibarən Azərbaycanda seçkiləri müşahidə etdiyini söyləyib. O bildirib ki, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilər MDB missiyası tərəfindən Azərbaycanda müşahidə edilən 12-ci seçki olacaq.

MDB müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verən qərargah rəhbəri hazırda heyətdə 132 nəfərin yer aldığını, onlardan 10 nəfərin uzunmüddətli müşahidə apardıqlarını qeyd edib. Onun sözlərinə görə, ilkin müşahidələr namizədlər üçün bərabər imkanların yaradıldığını, Mərkəzi Seçki Komissiyasının və onun yerlərdəki qurumlarının seçkilərə yüksək səviyyədə hazırlaşdığını göstərir.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov MDB müşahidə missiyasının Azərbaycandakı fəaliyyətinin seçki təcrübəsinin mübadiləsi və seçki institutunun daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıqla bağlı gördüyü işlər və seçkiqabağı təşviqat kampaniyasının gedişatı haqqında məlumat verən YAP Sədrinin müavini Azərbaycanın zəngin və daim təkmilləşən seçki təcrübəsinə malik olduğunu, qarşıdan gələn parlament seçkilərinin də rəqabətli mühitdə - azad, ədalətli, şəffaf və demokratik keçirilməsi üçün bütün şəraitin təmin edildiyini bildirib.

YAP Sədrinin müavini MDB müşahidə missiyasını maraqlandıran sualları cavablandırıb.

**XQ**

# “Odlar yurdu”nun qazı Xankəndidə də alovlanacaq



**Azərbaycan Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi Xankəndi şəhərindəki təbii qaz təchizatı infrastrukturunda bərpa-quruculuq işləri həyata keçirir.**

Qurumun Qarabağ Regional Qaz İstismarı İdarəsinin Xankəndi xidmət sahəsi üzrə rəis müavini Vasif Məsimovun mediaya bildirdiyinə görə, artıq, ümumilikdə, 41 min metr yeraltı qaz kəmərləri yoxlanılıb və “mavi yanacaq” veriləcək binalarda sınaq işlərinə başlanılıb.

Rəis müavini daha sonra qeyd edib ki, antiterror əməliyyatları zamanı qaz kəmərlərinin zədələnmiş hissələri gələcəkdə baş verə biləcək bədbəxt hadisələrin qarşısını almaq üçün qaynaq vasitəsilə bağlanıb.

**XQ**

# Azərbaycan terrorla mübarizədə ön sıradadır

**Azərbaycan terrordan ciddi şəkildə əziyyət çəkən bir ölkə olaraq milli və beynəlxalq səviyyədə terrorla mübarizə sahəsində daim ön sıralardadır.**




Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Terrorizm Qurbanlarının Xatirəsini Beynəlxalq Anma Günü ilə bağlı "X" hesabında etdiyi paylaşımda bildirilib:

"Biz terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə rədd edirik və bu ciddi təhlükəyə qarşı güclü beynəlxalq fəaliyyətin tərəfdarıyıq".

**XQ**

# İrandakı səfirimiz İƏT-nin yeni baş katibi ilə görüşüb



**Azərbaycanın İrandakı səfiri və İqtisadi Əməkdaşlıq Təşkilatındakı (İƏT) daimi nümayəndəsi Əli Əlizadə Tehranda qurumun yeni baş katibi Əsəd Məcid Xan ilə görüşüb.**

Bu barədə səfir “X” sosial şəbəkəsindəki səhifəsində məlumat verib.

“İƏT-nin yeni baş katibi Əsəd M. Xan ilə görüşməkdən şadam. Biz İƏT-nin rolunun daha da gücləndirilməsi, eləcə də Azərbaycanla fəal əməkdaşlığın davam etdirilməsi ilə bağlı fikir mübadiləsi apardıq”, – Ə.Əlizadə yazıb.

**XQ**

# Hərbçilərimiz “Altın Kıran” beynəlxalq təlimində

**Jungar Alatau dağlarında Qazaxıstanın Desant-Hücum Qoşunları və Azərbaycan Ordusunun bölmələri arasında kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsi üzrə təcrübə mübadiləsinin həyata keçiriləcəyi “Altın Kıran” beynəlxalq taktiki-xüsusi təlimi başlayıb.**

Təlim Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Desant-Hücum Qoşunlarının komandanı general-mayor Almaz Jumakeyevin rəhbərliyi ilə keçirilir.

Təlim iştirakçılarının daha səmərəli fəaliyyət göstərmələri üçün iştirakçılar Qazaxıstan və Azərbaycan hərbçilərindən ibarət iki qarışıq qrupa bölünüblər.

İlk gündə təlim iştirakçılarına alpinizm avadanlıqlarından istifadə, düyünlər bağlamaq, qayadan qalxmaq və enmək, yüksək dağlıq şəraitində ilkin tibbi yardımın göstərilməsi və yaralıların təxliyəsi ilə bağlı təlimlər keçirilib. İki ölkənin hərbçiləri qida təminatı olmadan dağ şəraitində sağqalma bacarıqlarını bölüşüblər.

Xatırladaq ki, “Altın Kıran - 2024”ün açılış mərasimi Almatı şəhərində baş tutub.

**XQ**



# Qayıqdan qayığa tullanmaq təhlükəli biclikdir

**(əvvəli 1-ci səhifədə)**



Doğrudan da, Lukaşenkonun sualı Paşinyan hakimiyyətində əsəbilik yaratmalı deyil, əksinə, onu düşünməyə vadar etməlidir: Emmanuel Makron hakimiyyətdən gedəndən sonra İrəvan nə edəcək? Bəlkə də İrəvan üçün ən düzgün seçim indidən post-Makron dövrünə hazırlaşmağa başlamasıdır.

Yelisey sarayı onun da fərqindədir ki, rəsmi Bakının yaratdığı yeni reallıqlar sayəsində Azərbaycanla Ermənistan sülhə çox yaxındır. Bakı və İrəvan arasında ləng də olsa davam edən ikitərəfli təmaslar sülhə ümidləri xeyli artırıb. Makron komandasını daha çox məhz bu amil əndişələndirir. Axı, onlar sülhün kənar güclərin, o cümlədən Fransanın Cənubi Qafqaza müdaxilə imkanlarını sıfıra endirəcəyini başa düşürlər. Bu səbəbdən Paris hər vasitəyə əl ataraq bölgədə "suyu bulandırmağa" cəhdlər edir. Belə cəhdlərin realizə meydanı kimi isə İrəvandan qeyri heç kəsi görmür. A.Lukaşenko Fransanın adını çəkəndə, əslində, bunu nəzərdə tutur.

* * *

Aleksandr Lukaşenkonun açıqlaması Ermənistan cəmiyyətində "bomba" effekti yaradıb və ona qarşı ən müxtəlif cəbhələrdən hücumlar, aşağılamalar müşahidə olunmaqdadır. Xüsusilə, Belarus Prezidentinin ölkəsinin Rusiya ilə bir qayıqda olduqlarını, o qayıqdan düşənin boğulacağını deməsi hay cəmiyyətində "təlatümə" səbəb olub və kəskin reaksiya doğurub.

"Biz özümüzü heç nə vermədən yalnız Rusiyadan nəsə qoparmaq istəyən bəzi başqa dövlətlər kimi aparmırıq", – deyən Lukaşenko geridə qalmış Ermənistanı yanlış siyasi xətt yürütməkdə günahlandıraraq Paşinyan hökumətini doğru yola çağırıb. Onun fikrincə, vəziyyət belə davam edə bilməz: "Gəlin birlikdə olaq. Kömək üçün Rusiyaya üz tutacağınız vaxt uzaqda deyil. Böhran baş verdikdə, Qazaxıstanda olduğu kimi, hamı kömək üçün Putinə müraciət edir. Biz, yəni KTMT ölkələri ora qüvvələr göndərib, iğtişaşları sakitləşdirməklə tez cavab verdik".

"Lukaşenko niyə qonşu dövlətlərin Rusiyadan kömək istəyəcəyini düşünür? Məsələ həmin ölkələrin Rusiyadan iqtisadi, təhlükəsizlik, enerji, ərzaq və sosial asılılığındadır. Əgər bir dövlət öz təhlükəsizliyini Rusiyaya həvalə edirsə, ondan kömək gözləməyi təbiidir. Son dörd ildə ermənilər, nəhayət, başa düşdülər ki, Rusiyadan yardım gözləyə bilməzlər, əksinə, Rusiyadan asılılıq ölümcül təhlükədir. Belarus Prezidenti bu cür danışmağa davam edə bilər, amma Ermənistanın vəzifəsi özünü rus müstəmləkəçiliyindən qurtulmaq olmalıdır. Əminəm ki, biz bu məsələdə tək deyilik...". Bu fikirləri erməni politoloq, bloger Robert Ananyan sosial şəbəkədə paylaşıb.

Ermənistanın parlamentindəki Rusiyameyilli müxalifət, təbii olaraq, Paşinyan komandasını Moskva ilə münasibətləri korladığına görə tənqid atəşinə tutur. Bu məqamı xüsusi vurğulayan hay bloger İrəvanın Qərbdə və başqa yerlərdə özünün təhlükəsizliyi üçün yeni tərəfdaşlar tapmağa çalışdığını və hətta "uğur qazandığını" yazır.

* * *

Siyasi konyukturaya və diplomatik etiketə görə, NATO-nun aparıcı ölkəsi sayılan ABŞ-nin Rusiya ilə eyni birlik və təşkilatda olan Ermənistanı silahlandırması qeyri-mümkündür. Amma indi dünyada çox "qeyri-mümklünlərin" böyük güclərin əlində rahatlıqla mümkünə çevrilməsi problem deyil. Erməni politoloq Ananyan hesab edir ki, erməni xalqı öz gələcəyini Rusiya ilə görmədiyini artıq Qərbə sübut edib: "Parisin Ermənistanı silahlandırmasının əsas səbəbi də budur. Fransa və ABŞ Ermənistana hərbi-texniki, hətta loqistik yardımlar etməklə, onun silahlı qüvvələrində islahatların yaxından iştirakçılarına çevriliblər. Bununla da onlar Rusiyanın yerini tutublar". Ardınca hay bloger maraqlı statistikanı ortaya qoyur: "Bu gün Ermənistana silahların yalnız 5 faizi Rusiyadan gəlir. 2020-ci ildə bu rəqəm 95 faizə bərabər idi. Öz ölkəsini Rusiyanın forpostuna çevirən Aleksandr Lukaşenko erməni xalqını tənqid edir. Mənə belə gəlir ki, Lukaşenko müəyyən mənada Ermənistanın Qərblə müstəqillik istəklərinə paxıllıq edir".

Bu zaman Ananyan sadə bir həqiqəti dilə gətirməyə çəkinir ki, 4 il əvvəl Ermənistan və Belarus Rusiyadan asılılığa görə MDB-də lider ölkələr idi. Bəli, son illər Belarus Rusiya ilə daha da yaxınlaşaraq, ittifaq dövləti daxilində inteqrasiya səviyyəsini artırıb. Amma Ermənistan ötən müddətdə həm daxildən, həm də xaricdən parçalanmaya doğru gedir. İrəvan, guya, KTMT-dəki üzvlüyünü dondurmaqla üzünü Qərbə tutduğunu nümayiş etdirir. Bəs, onun illik ticarət dövriyyəsi milyardlarla dollar həcmində ölçülən Avrasiya İqtisadi İttifaqı ilə münasibətlərinin aqibəti necə olacaq? Təsadüfi deyil ki, bu yaxınlarda Rusiya Xarici İşlər Nazirliyinin MDB üzrə birinci departamentinin direktoru, erməni əsilli Mixail Ağasandyan "RİA novosti"yə açıqlamasında Ermənistanın AİI-də iştirakının faydalı olduğunu, Moskvanın İrəvanın bu iqtisadi platformadan geri çəkilməyəcəyinə ümid etdiyini bildirib. Əgər geri çəkilərsə, ABŞ və Aİ Ermənistana "sərmayələr" və "parlaq gələcəklə" bağlı vədlərini yerinə yetirəcəklərmi? Onların öz sözlərinin üstündə müvazinətlərini necə itirdiklərini, 5 aprel Brüssel görüşündə cızdıqları məxfi "yol xəritəsinin" icra vəziyyətini hamı gördü.

* * *

"AİI İrəvan üçün sərfəlidir və bunun sayəsində Ermənistanda iqtisadi artım tempi təsiredici müsbət dinamika nümayiş etdirib ki, bununla da az adam öyünə bilər", – deyən Ağasandyan qeyd edib ki, "Ermənistan Qərb ölkələrinin tələsinə düşüb". "Ermənilər kimə lazımdır?" – sualına 2023-cü ilin noyabrında ATƏT Parlament Assambleyasının iclasında Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan cavab verib. Onun sözlərinə görə, Ermənistan xarici və təhlükəsizlik siyasətini şaxələndirir və bu kontekstdə Qərb və Asiya ölkələri ilə tərəfdaşlığını yüksək qiymətləndirilir.

ABŞ, Fransa və Aİ ilə tərəfdaşlığın dərinləşməsini Ermənistan dövlətçiliyinin və müstəqilliyinin qorunmasında bir nömrəli amil kimi görən Paşinyanın Qərbyönümlü komandası bu gün ciddi seçimlə üz-üzədir. Okeanın o tayındakı diasporun, lobbi qurumlarının dəstəyi ilə Ermənistan ABŞ ilə strateji tərəfdaşlıq qurmaq, dialoq səviyyəsini yüksəltmək barədə düşünərkən, şimaldan əsməyə başlayan və fırtınaya çevrilə biləcək küləkləri də nəzərə almağa məhkumdur. Belə məlum olur ki, Ermənistandakı "kollektiv müxalifət" MDB məkanında ölkələrinə qarşı formalaşmış bu münasibətin təqsirkarı kimi, əlbəttə ki, Paşinyan iqtidarını görürlər. Onlar rəsmi İrəvanın Yelisey sarayından verilən direktivlərlə hərəkət etdiyini aşkar görür və yaxşı başa düşürlər. "5-ci kolon" üçün Ermənistana Rusiya, Belarus və İran daha yaxındır. Hayastanın hələ də bunlarla və digər dövlətlərlə eyni itifaqda (AİI), birlikdə (MDB) və təşkilatda (KTMT) təmsil olunduğu faktdır. Yəni, Paşinyan istəsə də, istəməsə də, birlikdə üzdüyü qayığın sərnişinidir və onların razılığı olmadan onu tərk etməyə çalışmaq ölümə bərabərdir.

Amma digər reallığı da etiraf etmək lazımdır ki, bu gün siyasi, iqtisadi, təhlükəsizlik baxımdan, Haystan xeyli dərəcədə Qərbdəki "uzaq qohumlarından" asılı vəziyyətə düşüb. Dünənə qədər stullardan birini seçmək dilemması qarşısında qalan rəsmi İrəvan bu gün hansı qayıqda üzməyə qərar vermək əzabını yaşamaqdadır. Qayıqdan qayığa keçid eləmək isə təhlükəli tryukdur...

***İmran BƏDİRXANLI***
***XQ***

**Siyasi təhlil**

# Qatarlar Naxçıvana gedəcək!

**(əvvəli 1-ci səhifədə)**



Qeyd edək ki, son dövrlər Azərbaycan rəsmiləri tərəfindən verilmiş bəyanatlarda ölkəmizin Ermənistanla sülh gündəliyinin regional kommunikasiyaların açılması seqmentinin aradan qalxdığı vurğulanmışdı. Əslində, erməni tərəfi də bunu inkar etməmişdi. Ancaq rəsmi İrəvanın xaricdəki havadarlarının belə bir gedişata razı olmadıqları yaxşı məlumdur. O cümlədən, Bakının da regional kommunikasiyaların açılmasını istisna edən sülh gündəminə bir o qədər maraq göstərmədiyi faktdır. Sadəcə, durumdan asılı olan məqamlar var. Ermənistan məsələ ilə əlaqədar şərtlər qoyur, hansısa prinsiplər irəli sürür. Ölkəmiz üçün həmin şərt və prinsiplər qəbuledilməzdir. Yəni ki, regional kommunikasiyalar, heç bir halda, rəsmi İrəvanın uyğun bildiyi şəkildə açıla bilməz.

Faydalanması mümkündür, ancaq Ermənistanın mühüm qlobal magistrallar üzrə dominant mövqe tutmayacaq. Çünki belə halın yaşanması erməni avantürizmi üçün münbit perspektiv deməkdir. O avantürizm ki, otuz ildən artıq müddətdə onun ölkəmizə və xalqımıza hansı bəlalar yaşatdığını gördük. Yəni Azərbaycan regional komunikasiyalarsız sülh məntiqinə erməni tərəfinin vəziyyəti qəlizləşdirdiyinə görə üstünlük verir. Ancaq vurğuladığımız kimi, Qərbin ermənipərəst kəsimi başqa düşüncədədir. Bu kəsim hesab edir ki, Azərbaycan və Ermənistan arasındakı sülh sazişi Cənubi Qafqazın Rusiyadan asılılığını aradan qaldırmalı, habelə Moskvanın regiondan tamamilə sıxışdırılmasını təmin etməlidir. Barış mühitinin formalaşmasını geosiyasi rəqabət predmetinə çevirmək də elə budur.

Digər tərəfdən, nəqliyyat əlaqələrinin blokdan çıxarılması ilə bağlı "yol xəritəsi" var. Söhbət 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan gedir. Bəyanatda 44 günlük müharibənin rüsvayçı məğlub tərəfi kimi Ermənistan baş naziri Nikol Paşinyanın imzası yer alır. Erməni iqtidarı neçə müddətdir nəinki bu imzanı görməzdən gəlir, ümumən üçtərəfli bəyanatı tam şəkildə inkar edir. Sanki belə bir sənəd olmayıbmış. Bu, əsl sabotajdır.

Bəli, S.Lavrov sabotajın səbəbini bilməmiş deyil. Yəni o, özünün dediyi kimi, "belə bir mövqeyin mənasının nədən ibarət olduğunu" əslində, çox yaxşı dərk edir. Sadəcə, diplomatik dildə danışır. Prinsip etibarilə, hər şeyin tam aydın olduğunu diqqətə çatdırır, eyni zamanda, ölkəsinin başqa variantı qəbul etmədiyini vurğulayır. Ermənistan xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyan tərəfindən səsləndirilmiş anti-Rusiya bəyanatında yer alan başqa variantdan isə söz açacağıq. Yeri gəlmişkən, Lavrova Ermənistan adından cavab verən A.Badalyandır.

Nə isə, mövzunu kiçik və zəruri haşiyə ilə davam etdirək. Məlum olduğu kimi, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndində göstərilir ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Bəli, diqqətə çatdırdığımız 9-cu maddə məğlub dövlətin kapitulyasiya aktının bir hissəsidir. Sözügedən maddənin Ermənistan üçün zəmanət məntiqi ölkəni rüsvayçı kimi təqdim etməmək, aşağılamamaq üçün seçilib. "Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək" cümləsi isə mühüm məsələdir. Həmin yola Lavrov Zəngəzur yox, Sünik deyirsə, deməli, o, Ermənistana böyük jest ifadəsindədir. Bu, eyni zamanda, bölgənin rəsmi İrəvanın yurisdiksiyasında qalmasının təsdiqidir.

Onu da xatırladaq ki, Prezident İlham Əliyev müxtəlif çıxış və bəyanatlarında ölkəmizin Ermənistana qarşı hansısa ərazi iddiasının olmadığını dəfələrlə açıqlayıb. Hərçənd, dövlətimizin başçısının AZTV-yə 2021-ci ilin aprelində verdiyi müsahibədə belə bir prinsipial məqam da var: "Biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Əslində, Zəngəzur dəhlizi məntiqi çox sadədir: Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolda heç bir gömrük və sərhəd nəzarəti olmasın. Ermənistan və havadarları bunu ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması kimi dəyərləndirirlər. Həm də ona görə belə dəyərləndirirlər ki, üçtərəfli bəyanatın 9-cu bəndində "Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər" fikri yer alıb. Rəsmi İrəvan Qərbin təhriki ilə aktiv anti-Rusiya xətti həyata keçirir və bununla razılaşmır. Əlbəttə, erməni iqtidarının razılaşmadığı digər məqamlar da var və A.Badalyan Lavrova cavabında onlardan söz açır.

Ermənistanın XİN rəsmisi bildirir ki, Rusiya Xarici İşlər Nazirliyinin müxtəlif rəsmilərinin ölkəsi ilə bağlı həqiqətə uyğun olmayan, açıq-aşkar qərəzli, tez-tez hörmətsiz şərhləri davam edir. Onun sözlərinə görə, belə hallar yeni deyil və erməni tərəfi bu cür şərhlərə uzun müddətdir cavab vermirdi: "Rusiya XİN rəhbərinin dünənki bəyanatı nəinki açıq-aşkar təəssüf doğurur, həm də Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində Rusiya Federasiyasının konstruktiv iştirakını şübhə altına alır".

Qeyd edək ki, rəsmi İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata qarşı zidd mövqeyini həmin sənədin imzalandığı ilk vaxtlardan ortaya qoyub. Ancaq bu mövqe heç vaxt birbaşa olaraq bəyanatdan imtina məntiqinə köklənməyib. Ermənistan rəhbərliyi sənədi saymazdan gəlməklə yanaşı, özünə lazım olanda onu ehkamlaşdırmaq yolunu tutub. Ancaq indi A.Badalyanın fikirləri onu deməyə əsas verir ki, rəsmi İrəvan üçün üçtərəfli bəyanat adlı nə isə ümumiyyətlə yoxdur.

Erməni XİN sözçüsü Lavrovun diqqətinə çatdırır ki, Rusiya vaxtilə vasitəçi rolunu üzərinə götürərək, üçtərəfli bəyanatı imzalayan və bunun əsasında özünün sülhməramlı qüvvələrini regiona yerləşdirən ölkə oldu. Yəni, Moskva öz xeyrini güddü və Lavrov bunu görməzdən gələ bilməz. Ardınca isə o bildirir ki, Rusiyanın imzasının olmasına, nəzərdə tutulmuş proseslərdə ölkənin iştirakının və məsuliyyətinin müəyyənləşməsinə baxmayaraq, bu, sənədin dönməzliyinin təsdiqi deyil. Ən başlıcası isə A.Badalyan, öz aləmində, diplomatik davranaraq deyir ki, açıq sənədlərdən başqa Ermənistan heç bir başqa sazişin tərəfi deyil və deməli, onları sabotaj edə bilməz.

Görəsən, belə bir mövqeyin səslənməsi nə deməkdir? Cavab aydındır – rəsmi İrəvan tanımadığı, qəbul etmədiyi sənədi inkar etmir. Belə yanaşmanın məzələnməkdən başqa adı yoxdur. Ancaq A.Badalyan məzələnməklə bərabər, sərsəmləməyi də yaddan çıxarmır. Deyir ki, Ermənistan hökumətinin təqdim etdiyi "Dünyanın kəsişməsi" layihəsi artıq beynəlxalq aləmdə geniş rəğbət qazanıb və bir neçə dəfə Rusiya rəsmilərinə təqdim olunub. Layihə çərçivəsində regional kommunikasiyaların açılması istənilən vaxt baş verə bilər: "Biz Rusiya Xarici İşlər Nazirliyindəki həmkarlarımızı qərəzli bəyanatlarla onun həyata keçirilməsini sabotaj etməməyə və Cənubi Qafqazda sülhün əldə edilməsi səylərini pozmamağa çağırırıq".

Erməni XİN rəsmisi "Dünyanın kəsişməsi" avantürasını ortaya atmaqla sərsəmləyirdisə, diqqətə çatdırdığımız sitatda yer alanlar aşkar həyasızlıqdır. Deməli, hazırda regionda sülhü pozan Rusiyadır (?). O zaman yalnız bir sual verək: görəsən, nəyə görə Badalyan və onun təmsil olunduğu komandada heç kəs Qarabağdakı rus hərbçiləri vaxtilə Ermənistandan bölgəyə silah-sursat, mina daşınmasına göz yumanda, Moskvanın sülhə zərər gətirdiyini açıqlamırdılar?..

Sonda daha bir məqamın üzərində dayanaq. A.Badalyan bildirir ki, Ermənistan sülh gündəliyinə sadiqliyini dəfələrlə təsdiqləyib, yenidən təsdiqləyir və gündəliyin uğurla həyata keçirilməsi üçün əlindən gələni edəcək. Real ifadə belə olmalıdır: rəsmi İrəvan sülhdən yayınmaq, Qərbin direktivlərini yerinə yetirmək, erməni avantürizmini saxlamaq naminə hər şeyi edir və belə görünür, bundan sonra da mövqeyində qalacaq. Məsələn, Ermənistan hökuməti xaricdəki havadarları ilə birlikdə ATƏT-in artıq keçmiş sayılan, faktiki fəaliyyəti olmayan, yalnız kağız üzərində qalan Minsk qrupu formatının bərpasına və sülh danışıqlarının həmin format çərçivəsində aparılmasına hazırlıqdan dəm vurur. Heç şübhəsiz, bu, indiyədək keçilmiş yolu heçə saymaq, Lavrovun təbirincə desək, sabotajdır. Çünki erməni iqtidarı yaxşı bilir ki, sülh gündəliyi baxımından müəyyənləşdirilmiş prinsiplər var. Hazırda rəsmi İrəvan xarici dəstəkçilərinə güvənərək, həmin prinsiplərə meydan oxuyur. İndiyədək Ermənistan rəhbərliyinin bu sayaq məsuliyyətsiz və prinsipsiz davranışlarının ölkə üçün hansı ağır nəticələr doğurduğu hər kəsə yaxşı məlumdur. Ölkənin hakim dairələri anlamalıdırlar ki, gedən qatarın çarxlarının arasına saman çöpü soxmaqla, onu dayandırmaq mümkünsüzdür. Yəni, obrazlı desək, Naxçıvana qatar gedəcək və erməni millətçiləri ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindəki kimi, onu daşa basa bilməyəcəklər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bakı Şəhər İcra Hakimiyyətində müşavirə

**Bakı Şəhər İcra Hakimiyyətində paytaxt rayonları icra hakimiyyətləri başçıları və şəhərin təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə növbəti müşavirə keçirilib.**



BŞİH-nin mətbuat xidmətindən bildirilib ki, müşavirədə bir sıra məsələlər, o cümlədən paytaxtda aparılan əsaslı təmir, abadlıq-quruculuq, yaşıllaşdırma işlərinin vəziyyəti və digər məsələlər müzakirə edilib. Qeyd olunub ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bu gün paytaxtımız keyfiyyətcə yeni inkişaf səviyyəsinə yüksəlib, əhalinin həyat və mədəni səviyyəsi artıb, şəhərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir.

Şəhər ərazisində həyata keçirilən işlərin monitorinqlərinin nəticələri müşavirə iştirakçılarının diqqətinə çatdırılıb. Həmçinin son vaxtlar Binəqədi və Yasamal rayonlarında bu istiqamətdə müsbət dəyişikliklərin müşahidə edildiyi vurğulanıb. Paytaxtda aparılan əsaslı təmir, abadlıq-quruculuq işlərinin sürətləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Müşavirədə qanunsuz tikililərlə bağlı məsələ ciddi müzakirə olunub və rayonlarda aparılan monitorinqlərin nəticələrinə dair görüntülər nümayiş etdirilib.

Tədbirdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, bu gün dövlətimizin başçısı İlham Əliyev məmurlar qarşısında ciddi tələblər qoyub, onların təmiz işləmələrini və təvazökar olmalarını bir vəzifə kimi tapşırıb. Lakin hələ də bəzi mənfi hallar müşahidə edilməkdədir. Bununla əlaqədar rayon icra hakimiyyətlərinin başçılarına ciddi xəbərdarlıq edilərək, təcili tədbirlərin görülməsi tələb olunub. Bildirilib ki, BŞİH-nin monitorinq qrupu tərəfindən işlərə nəzarət ediləcək və nəticələr bir aydan sonra yenidən müzakirəyə çıxarılacaq.

**XQ**

# Vilayət Eyvazov xidmətə qəbul baxışı keçirib



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 21-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 244 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 18 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

"Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib", – məlumatda qeyd olunub.

**XQ**

# Polineziya və Kaledoniyadan sonra Boneyra...

**Bu gün Bakıda Niderlandın müstəmləkəçiliyi altında olan Boneyra adasına həsr olunmuş beynəlxalq konfrans keçiriləcək. Tədbir Bakı Təşəbbüs Qrupu və Boneyra İnsan Hüquqları və Dəyişiklik Naminə Hərəkat tərəfindən təşkil olunub. Bu barədə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov çərşənbə günü jurnalistlərə bildirib.**

O qeyd edib ki, Boneyra adası cari ilin oktyabrında BMT-yə qətnamə layihəsi təqdim edəcək. Bu sənəd adanın kolonizasiya siyahısına əlavə olunmasını özündə əks etdirir.

"Bakıda səfərdə olan Boneyra adasının nümayəndə heyəti Bakı Təşəbbüs Qrupuna burada birgə beynəlxalq konfransın təşkili ilə bağlı müraciət edib. Biz konfransın avqustun 22-də təşkili barədə qərara gəlmişik. Nümayəndə heyəti qətnamə layihəsini təqdim etməzdən əvvəl Bakıdan bununla bağlı dünyaya çağırış ünvanlayacaq", - deyə icraçı direktor əlavə edib.

### Konfrans iştirakçıları

**Boneyra adasının nümayəndə heyətinin üzvü, Boner Dəyişim Hərəkatının yaradıcısı Ceyms Finis:**



– Bizim adamız Niderlandın müstəmləkəsidir. İnsanlarımız çox çətin vəziyyətdədir. Belə ki, adamızdakı bütün qanunlar müstəmləkə olduğumuz üçün Niderland tərəfindən yazılır. Bizim xalqımız demokratik hüquqlara sahib deyil.

Müstəmləkəçilikdən əziyyət çəkən ölkələrə dəstəyinə və bizə sözümüzü demək üçün şərait yaratdığına görə Azərbaycan dövlətinə və xalqına təşəkkür edirəm.

Niderland hökuməti qanunları dəyişdirib və artıq Avropa İttifaqı ölkələrinin vətəndaşı olan insanlar buraya köçmək hüququ əldə ediblər.

2030-cu ildə ölkəmizin yerli əhalisinin 30 faizdən az olacağı deyilir. Demək olar ki, biz öz ölkəmizdə milli azlıq olacağıq. İnsanlarımızın bu vəziyyətdən şikayət etmək hüquqları belə yoxdur.

**Boneyra adasının nümayəndə heyətinin üzvü, BMT yanında Afrikaəsilli Vətəndaşlar Forumunun üzvü June Somer:**



– Müasir dünyada hələ də müstəmləkəçilikdən əziyyət çəkən, boyunduruq altında olan ölkələr, insanlar var. Təəssüf ki, buna qaradərili insanlar daha çox məruz qalırlar. Bakı Təşəbbüs Qrupu çox mühüm platformadır və müstəmləkəçilikdən əziyyət çəkənlərin yanında olduğunu hər zaman göstərir.

Azərbaycanda olmaq, avqustun 22-də keçiriləcək beynəlxalq konfransa qatılmaq mənim üçün çox mühüm əhəmiyyətə malikdir.

Müstəmləkədən əziyyət çəkən insanların buraya gəlib öz səslərini dünyaya çatdırmaları çox yaxşı fürsətdir. Müstəmləkələrin və quldarlıq rejiminin afrikaəsilli insanlara hələ də təsir etməsindən danışmaq da vacibdir. Biz bu ölkələrin necə müstəqillik əldə edə biləcəyi haqqında müzakirələr aparmalıyıq. O cümlədən biz onların bu müstəqillik yolunda nələr etdiyinə baxmalıyıq.

**Belizin nümayəndə heyətinin üzvü, Belizin BMT-də daimi və səlahiyyətli səfiri Karlos Füller:**



– Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkən ölkələr üçün çox mühüm platforma yaradır və buna görə təşəkkür edirik. Düşünürəm ki, biz və müstəmləkəçilikdən əziyyət çəkən digər xalqlar bunu dünyanın diqqətinə çatdırmalıdırlar.

Bizim ölkəmiz öz müstəqilliyini 1981-ci ildə əldə edib. Bu çox əziyyətli proses idi. Müstəqilliyimiz uğrunda əzmlə mübarizə aparmışıq və buna 20 ildən sonra nail ola bilmişik. Müstəmləkəçilikdən əziyyət çəkən digər ölkələr və regionlar da öz səslərini ucaltmalıdır.

Replika

# Döyüşə "ölülər" gedir

## Erməni separatçılığı və COP29-la bağlı anti-Azərbaycan təbliğatı

**Belə hallar ilk dəfə deyil yaşanır. Söhbət Ermənistanda məskunlaşmış Qarabağdakı sabiq separatçı rejimin təmsilçilərinin sərsəmləmələrindən gedir. İndi də "Artsax milli assambleyası" deyilən qondarma qurum bəyanat verib. Bu "strukturun" mənasızlığı barədə söhbət açacağıq. Ancaq məqsədimiz onun fonunda daha vacib məqamı vurğulamaqdır.**

Azərbaycanla Ermənistan arasında sülh gündəmi deyilən bəlli siyasi trayektoriya var. Rəsmi İrəvan hər nə qədər bu trayektoriyaya kölgə salmağa, əhəmiyyətini heçə endirməyə, bir sözlə, sülhdən yayınmağa çalışsa da, barış mühitinin formalaşması ilə bağlı ritorikadan rəsmi qaydada imtina etmir. Daha doğrusu, imtina edə bilmir. Çünki erməni iqtidarı 2019-cu ildə Azərbaycanla danışıqlar prosesinin boykotuna yönəlmiş təxribatçı davranışlarının sonradan hansı böyük fəlakətlə nəticələndiyini görüb.

Digər tərəfdən, rəsmi İrəvan beynəlxalq birliyin gözündə pis olmaq istəmir. Ancaq manipulyasiyalarından da qalmır. Çalışır ki, sülh prosesinə özünü sərfəli müqəddimələr gətirsin və beləliklə, Qarabağ avantürasını diri saxlasın. Əslində, parabeyinlərin ortaya atdıqları "Artsax milli assambleyası" deyilən "struktur" da elə buna xidmət edir. Özü də təkcə bu "struktur" yox, qondarma rejimin digər özəklərinin, guya, fəaliyyətdə olduğuna dair məlumatlar var və ara-sıra onlar özlərinin "varlıqlarını" sübut etməyə çalışırlar.



Əslində, məsələyə real aspektdən yanaşsaq, bu sayaq meyillər Ermənistanın Azərbaycana qarşı ərazi iddiasını davam etdirməsi deməkdir. Baxmayaraq ki, rəsmi İrəvanın ayrı-ayrı təmsilçiləri bütün beynəlxalq platformalarda ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tanıdıqlarını vurğulayırlar. Onların aldıqları nəfəs də yalan olduğu kimi, mövcud istiqamətdə səsləndirdikləri açıqlamalar da səmimiyyətdən uzaq, spekulyativ səciyyə daşıyan cəfəngiyatdır.

Belə bir durumda Azərbaycan nə etməlidir? Axı Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması ilə Qarabağdakı keçmiş separatçı rejimə məxsus qondarma strukturların anti-Azərbaycan bəyanatlar səsləndirmələri arasında heç bir fərq yoxdur. Hər iki halda ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qəsd amili var. Birinci halda bu qəsd sərhədlərimizə yaxın ərazidə törədilirsə, ikinci halda təhlükəli nöqtə Ermənistan adlı qurama respublikanın içərisindədir. Deməli, ölkəmiz zəruri müdafiə tədbirinə əl atmaq ixtiyarını özündə saxlayır. Şərt o deyil ki, paytaxt İrəvandakı separatçılar oturduqları daldalanacaqlardan və zirzəmilərdən Azərbaycana raket tuşlasınlar. Elə destruktiv yüklü bəyanatlar səsləndirmələri də bəsdir.

Bir el misalında deyildiyi kimi, dəvəquşu başını quma salıb gizlənmək istəsə də, əndamı çöldə qalır. Yəni ki, baş nazir Nikol Paşinyan administrasiyasının fitnə-fəsad dolu oyunları hər kəsə yaxşı məlumdur. Heç şübhəsiz, "Artsax milli assambleyası" adlanan ölülər yığınını da işə salmaq bu administrasiyanın əməlidir. Çünki "ölülərin" qaldırdıqları məsələləri Ermənistan hakimiyyəti də qabardıb və müxtəlif mərhələlərdə həmin məsələləri Azərbaycanla sülh gündəminin tərkib hissəsinə daxil etməyə çalışıb. Eyni zamanda, çalışıb ki, "etnik təmizləmə" şousunu, Azərbaycanın Ermənistan ərazilərini işğal etməsi cəfəngiyyatını qaldırmaqla, ölkəmiz əleyhinə mənfi beynəlxalq rəy formalaşdırsın. Elə bir mənfi rəy ki, onun nəticəsində Azərbaycana qarşı təzyiqlər göstərilsin, sanksiyalar tətbiq edilsin. Paşinyanın komandası Qarabağın erməni milli mirası sərsəmliyinə və Bakı həbsxanalarındakı canilərı məzlum qiyafəsində təqdimatına əsaslanaraq da anti-Azərbaycan təbliğatı aparıb. Əlbəttə, məqsədinə nail ola bilməyib. İndi isə "Artsax milli assambleyası" oxşar "motivləri" irəli sürür. Nəyə görə və konkret məqsəd nədir?

Bəli, məqsəd BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) məsələsində Azərbaycanı ləkələmək, ölkəmizin belə bir mötəbər tədbirə evsahibliyi obrazına zərər vurmaqdır. Burada maraqlı nüans var. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin aparatı ötən il dekabrın 7-də birgə açıqlama yaymışdı. Həmin açıqlamada bildirilmişdi ki, "Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcəklər. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa qrupundan COP-un büro üzvlüyünə namizədliyini dəstəkləyir".

Yəni, zamanında Azərbaycanın COP29-a evsahibliyi Ermənistan tərəfindən dəstəklənib. Ona görə ölkə rəhbərliyi hazırda birbaşa özünü inkar yolu tuta bilmir. COP29-la bağlı ölkəmiz əleyhinə təbliğatı daha çox xaricdəki erməni lobbi və diaspor təşkilatları, habelə ermənipərəst dairələr aparırlar. Görünür, "Artsax milli assambleyası" adlı qondarma quruma da "rol" verilib.

Yekunda onu da deyək ki, Ermənistan rəhbərliyinin bütün anti-Azərbaycan fəaliyyəti kimi, haqqında söz açdığımız "rol" məsələsi də çox təhlükəlidir. Təhlükə keçmiş separatçı rejimin təmsilçilərinin qiyafəsində "ölülər" üçün yox, Ermənistan adlı kliniki ölüm keçirən, özündə yalnız azmaz həyat simptomlarını yaşadan dövlət baxımından aktualdır. Bu dövlətin rəhbərliyi təfərrüatları və perspektivi yaxşı-yaxşı düşünməli, əməllərindən daşınmalıdır. Özü də vaxt itirmədən. Sonra gec ola bilər...

**Ə.RÜSTƏMOV**

**XQ**

# Xəzər dənizində zəlzələ

**Avqustun 21-də Xəzər dənizində zəlzələ qeydə alınıb.**




Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Zəlzələlərin Tədqiqatı Bürosundan verilən məlumata görə, yerli vaxtla saat 14:45-də qeydə alınan yeraltı təkanların maqnitudası 3-ə bərabər olub.

Zəlzələnin ocağı 66 kilometr dərinlikdə yerləşib.

**XQ**



# Milli Məclisə seçkilərə 9 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Ən yaşlı seçicimizin 134 yaşı var

## Lənkəranda seçki yüksək fəallıq şəraitində keçəcək

**Milli Məclisə növbədənkənar seçkilərlə bağlı səsvermə gününə 10 gündən az vaxt qalır. Hazırda bütün ölkə üzrə 125 seçki dairəsində namizədlər fəal təbliğat-təşviqat kampaniyası aparırlar. Onlar əvvəlcədən müəyyən edilmiş açıq və qapalı məkanlarda görüşlər keçirir, seçicilərə öz platformalarını təqdim edir, seçiləcəkləri təqdirdə görəcəkləri işlərdən, problemlərdən və onların həlli yollarından bəhs edirlər. Həmçinin, namizədlər qapı-qapı gəzmək, həyətlərdə görüşlər keçirmək, buklet, flayer paylamaq təcrübəsindən də yararlanırlar.**

Ümumiyyətlə, seçkilər hər bir xalqın həyatında mühüm rola malik siyasi kampaniyadır. Seçicilər seçkilərə biganə qalmamaqla, səsvermədə mütəşəkkil iştirak etməklə, əslində, öz gələcəkləri ilə bağlı məsələlərə biganə olmadıqlarını büruzə verirlər.

Parlament seçkilərinin mühüm atributlarından biri də onun torpaqlarımızın işğaldan azad edilməsindən və ötən il dövlət suverenliyimizin bərpasından sonra qanunverici orqana keçirilən ilk seçkilər olmasıdır. Bu seçkilər artıq müstəqil ölkəmizin tarixinə bütün ərazilərimizdə keçiriləcək ilk parlament seçkiləri kimi düşüb.

Bəs dairə seçki komissiyalarında seçkilərə son hazırlıq işləri necə gedir? DSK-lar Mərkəzi Seçki Komissiyasının Təqvim planında nəzərdə tutulmuş işləri müvafiq ardıcıllıqla yerinə yetirə bilirlərmi? Bu və digər suallarla 78 saylı Lənkəran kənd dairə seçki komissiyasının sədri Əlövsət Rufiyevə müraciət etdik.

**– Əlövsət müəllim, 78 saylı Lənkəran kənd seçki dairəsində parlament seçkilərinə hazırlıq prosesi necə gedir?**

– 78 saylı Lənkəran kənd seçki dairəsinin dairə seçki komissiyası və onun hüdudları daxilində yerləşən məntəqə seçki komissiyaları səsvermə gününə, demək olar ki, tam hazırdır. Bütün məntəqələr səsverməyə çağırış vərəqələri ilə təmin olunub. Səsvermənin keçirilmə tarixi, vaxtı və yeri, habelə seçki məntəqəsinin ünvanı barədə bildirişlərin, demək olar ki, 80 faizi seçicilərə paylanılıb. Qalan 20 faizinin paylanması isə gündəlik davam etdirilir.

Seçki məntəqələrində seçkilərə hazırlıq işləri qanunvericiliyin tələblərinə uyğun aparılır. Məntəqələr işıq, qaz, rabitə, internet və tibbi xidmətlə təmin olunub.

**– Seçki dairəsinin ərazisində neçə məntəqə mövcuddur?**

– Dairə seçki komissiyasının hüdudları daxilində Lənkəran rayonunun təxminən 47 kəndini əhatə edən 53 seçki məntəqəsi var. Qeydiyyatda olan seçicilərin ümumi sayı isə 48 800 nəfərdir.

**– Seçki yarışına neçə nəfər qatılmışdı?**

– Milli Məclisə növbədənkənar seçkidə öz qüvvəsini sınamaq üçün DSK-ya ümumilikdə, 14 nəfər müraciət etmişdi. Onlardan bir nəfəri imza vərəqələrini götürmədi. İki nəfər imza vərəqələrini qaytarmadı. Üç nəfər bizə ərizə ilə müraciət edərək namizədliklərini geri götürmək istədiklərini bildirdilər. Bir nəfərin isə tələb olunan sayda, yəni 450 imza toplaya bilməməsi səbəbindən və maliyyə sənədlərini vaxtında təqdim etmədiyi üçün dairə seçki komissiyasının qərarı ilə ona imtina cavabı verildi. Hazırda dairə üzrə 7 namizəd təbliğat-təşviqat kampaniyası aparır. Onlardan bir nəfərinin namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülüb. Qalan 6 nəfəri isə bitərəfdir və namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülüb.






Bizim məktubumuzla Lənkəran Şəhər İcra Hakimiyyəti tərəfindən namizədlərin görüşlərinin keçirilməsi üçün açıq və qapalı məkanlar ayrılıb. Biz hər iki məkanlarda namizədlərin görüşlərinin keçirilməsi ilə bağlı qrafik tərtib etmişik. Namizədlər həmin qrafik üzrə təbliğat-təşviqat prosesini həyata keçirirlər. Onlar bir gün əvvəldən bizə hansı kəndə, açıq və ya qapalı məkanda görüş keçirməklə bağlı məlumat verirlər. Biz isə öz növbəmizdə polisə məlumat veririk ki, həmin yerdə, həmin saatda asayişi təmin etsinlər.

Bundan başqa, bütün seçki məntəqələrinin həyətində təşviqat lövhələri yerləşdirilib. Orada namizədlərin plakatlarının yerləşdirilməsində hər hansı problem yoxdur və ola da bilməz.

Təqvim planına görə, səsvermə gününə azı 5 gün qalanadək, yəni avqustun 27-dək Mərkəzi Seçki Komissiyası seçki bülletenlərini dairə seçki komissiyalarına verməlidir. Yenə də təqvim planına görə, səsvermə gününə azı 3 gün qalanadək, yəni avqustun 29-dək dairə seçki komissiyaları seçki bülletenlərini məntəqə seçki komissiyalarına verməlidir. Biz hazırda buna hazırlıq görürük.

– Seçicilər sizə hansısa məsələlərlə bağlı müraciət edirlərmi?

– Hələlik seçicilər tərəfindən bilavasitə bizə müraciət daxil olmayıb. Seçici siyahıları dəqiqləşdirilərək məntəqələrin divarlarından asılıb. Seçicilər istədikləri vaxt seçici siyahıları ilə tanış olmaq imkanına malikdirlər. Hələlik kiminsə adının siyahıda olmadığına dair fakta rast gəlməmişik.

**– Lənkəranda seçki prosesinə maraq varmı? Aktivlik hiss olunurmu?**

– Hiss olunur. Namizədlərin görüşlərinə seçicilərin maraq göstərməsi, bütövlükdə, seçki prosesinə olan marağın ifadəsidir.

**– DSK üzrə seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün hansı işlər görülür?**

– Prosesin qeyd etdiyiniz tələblərə uyğun keçirilməsi üçün indiyədək bütün işlər görülüb. Zənnimcə, burada da məntəqə seçki komissiyalarının üzvləri üçün Mərkəzi Seçki Komissiyası tərəfindən keçirilən maarifləndirici treninqlərin böyük rolu var. Həmçinin, beynəlxalq müşahidəçilər seçki dairəsində görüş keçiriblər. Onlar da hər hansı irad bildirməyiblər. Biz namizədlərin təbliğat-təşviqat prosesinə hər hansı formada müdaxilə etmirik və buna səlahiyyətimiz də yoxdur. Məntəqələrdə seçki prosesi Seçki Məcəlləsinin və digər qanunların tələblərinə uyğun təşkil olunub. Seçki qutuları yerindədir. Səsvermə kabinələri tam hazır vəziyyətə gətirilib və sxemə uyğun qurulub. Seçici səsvermə kabinəsinə daxil olur, gizli şəkildə səsini verir. Oradan çıxdıqdan sonra isə bülleteni qutuya atır. Bu proses də bütün müşahidəçilərin gözləri önündə baş verir.

Bugünlərdə köməkçi materialların daha bir qismi, məsələn şəffaf mürəkkəblər də məntəqələrə çatdırılacaq.

Bilirsiniz ki, seçkinin şəffaf keçirilməsinin daha bir göstəricisi məntəqələrdə veb-kameraların quraşdırılmasıdır. Ölkə üzrə seçkidə, adətən, 1000 məntəqədə veb-kamera yerləşdirilir. Onlardan beşi bizim dairənin məntəqələrini əhatə edir. Bunlar Gərmətük qəsəbəsində yerləşən 2 saylı, Haftoni kəndində yerləşən 33 saylı, İstisu qəsəbəsində yerləşən 39 saylı, Girdəni kəndində yerləşən 42 saylı və Havzava kəndində yerləşən 44 saylı məntəqələrdir.

**– Müşahidəçilərin sayı neçə nəfərdir?**

– İndiyədək 490 nəfər müşahidəçi qeydə alınıb. Onlardan 106 nəfəri Yeni Azərbaycan Partiyasını təmsil edir. Qalanları öz təşəbbüsləri ilə müşahidəçilik aparmaq istəyənlərdir. Məşvərətçi səs hüquqlu komissiya üzvlərinin sayı isə 54 nəfərdir.

**– Dairə üzrə ən yaşlı və ilk dəfə səs verəcək seçicilərin sayı nə qədərdir?**

– Seçicilərdən bir nəfərinin yaşı yüzdən yuxarıdır, daha doğrusu 134 yaşı var. Bu, Şilavar kəndində yerləşən 36 saylı məntəqədə qeydiyyatda olan Əzizova Tamam Əli qızıdır. O, 1890-cı ildə Cəlilabad rayonunun Tokrovka kəndində dünyaya gəlib. 18 yaşı tamam olmuş seçicilərin sayı isə 6 min nəfərdir.

Əlil seçicilərin səs verməsi üçün MSK tərəfindən panduslar quraşdırılıb. Onlar əlil arabaları ilə gələrək panduslar vasitəsilə məntəqəyə qalxa və səs verə bilirlər. Səsvermə günü səhhəti ilə əlaqədar səs verə bilməyən şəxslər isə məntəqələrə ərizə ilə müraciət etməlidirlər. Bundan sonra onların evlərinə daşınan seçki qutuları göndəriləcək.

**– Seçkidə "exit-poll" aparılacaq məntəqələr arasında 78 saylı dairənin məntəqələri də varmı?**

– Bu məsələ MSK tərəfindən tənzimlənir. "Exit-poll" aparacaq təşkilatlar MSK-da qeydiyyatdan keçməlidirlər. Sonra isə onlar müvafiq dairələr üzrə paylanılırlar. Hələlik bununla bağlı bizə müraciət edilməyib. Onlar, adətən, 4-5 gün qalmış qeydiyyata düşürlər. Ya bir, ya da iki məntəqədə "exit-poll" aparılır.

Əminik ki, seçkilər azad, ədalətli və şəffaf keçiriləcək və dairə üzrə ciddi şikayətlər olmayacaq. 78 saylı Lənkəran kənd seçki dairəsinin dairə seçki komissiyası, səsvermə günü də daxil olmaqla, seçkiləri yüksək səviyyədə, Seçki Məcəlləsinin və digər qanunların tələblərinə uyğun şəkildə keçirəcək. Ona da inanırıq ki, ölkəmizin böyük rayonlarından olan Lənkəranda seçkilər yüksək fəallıq şəraitində baş tutacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Seçki xəbərləri

### 508 gənc ilk dəfə səs verəcək



"15 saylı Yasamal birinci DSK üzrə 38 seçki məntəqəsi fəaliyyət göstərir. DSK-ya müraciət edən 20 nəfərdən onunun namizədliyi qeydə alınıb. Beynəlxalq müşahidəçilər seçki dairəsinə gələrək, hazırlıq prosesi ilə tanış olublar". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 15 saylı Yasamal birinci DSK-nın sədri Cumar İsayev deyib. DSK sədri qeyd edib ki, seçki dairəsinin hüdudları daxilində məntəqələr texniki cəhətdən tam hazır vəziyyətə gətirilib: "Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə 50 min 965 seçici qeydə alınıb. İlk dəfə səsvermə hüququ qazanan gənclərin sayı 508 nəfərdir".

### Seçkilər demokratik inkişafa töhfədir



Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında "Psixoloji İnkişaf və Maarifləndirməyə Dəstək" İctimai Birliyinin sədri Kamil Həmidov deyib.

"İlk dəfədir ki, Milli Məclisdə ərazi bütövlüyünə qovuşmuş xalqın iradəsi ilə peşəkarlardan ibarət heyət formalaşacaq. Bu heyət yeni çağırışlara cavab verən, qanunvericilik aktları hazırlayan, xaricdə məğrur və alnıaçıq formada bizi təmsil edəcək deputatlardan ibarət olacaq",– deyən QHT sədri qeyd edib ki, ərazi bütövlüyünün bərpası ilə Azərbaycan yalnız işğala son qoymayıb, həm də xalqın birliyini və milli iradəsini gücləndirib. Bu birlik seçkilərdə də özünü göstərəcək.

### 500 müşahidəçi qeydiyyatdan keçib

"60 saylı Quba–Qusar seçki dairəsi üzrə 61 seçki məntəqəsi var. Bu məntəqələr zəruri avadanlıqlarla təmin olunub. Seçicilərin sayı 52 mindən çoxdur. Onlardan 1 nəfərin yaşı 100-dən artıqdır.



Dairə üzrə 7 namizəd qeydiyyatdan keçib və hazırda namizədlərin təşviqat kampaniyası davam edir".

Bu barədə "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlama verən 60 saylı Quba–Qusar DSK-nın sədri Rahim Qarayev dedi ki, bugünədək dairə üzrə 500 müşahidəçi qeydiyyata alınıb.

### 1 sentyabrda 5 gəncin 18 yaşı tamam olacaq



"66 saylı Saatlı dairə seçki komissiyasında qeydiyyatda olan 50 min 900 seçici 50 məntəqədə səs verəcək. Səsvermə hüququndan ilk dəfə istifadə edəcək 434, o cümlədən seçki günü 18 yaşı tamam olacaq 5 seçicimiz var". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 66 saylı Saatlı DSK-nın sədri Arif Əliyev deyib. O bildirib ki, 7 məntəqədə veb-kamera, 24 məntəqədə pandus quraşdırılıb: "Bütün məntəqələrdə seçkiqabağı təşviqatın aparılması məqsədilə lövhələr qurulub, qapalı və açıq görüş yerləri ayrılıb".

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Dairələrdə İKT təlimləri

**Mərkəzi Seçki Komissiyası (MSK) Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində avqustun 21-dən etibarən növbəti layihəyə – dairə seçki komissiyalarının (DSK) informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün praktiki seminarlara başlayıb.**



"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, layihənin əsas məqsədi seçki günü məlumatlarının operativ şəkildə ictimailəşdirilməsi və beləliklə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsidir.

Seminarlar çərçivəsində DSK-ların informasiya texnologiyaları üzrə mütəxəssisləri Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) ümumi fəaliyyəti və yenilənərək daha da təkmilləşdirilən imkanları barədə ətraflı məlumatlandırılır, tətbiq olunan proqram təminatlarından birbaşa və praktiki istifadə təmin edilir, eləcə də yaranan suallara yerindəcə əyani şəkildə aydınlıq gətirilir.

İnformasiya texnologiyaları üzrə mütəxəssislərə xüsusi proqram modullarından praktiki məşğələlərlə test rejimində işləməyə də şərait yaradılır ki, bu da Milli Məclisə seçkilər günü həm seçicilərin fəallığı, həm də səsvermənin nəticələrinə dair protokol məlumatlarının MSK-ya ötürülməsi üçün proqram təminatlarını dərindən mənimsəmələrinə imkan verir.

DSK-ların informasiya texnologiyaları üzrə mütəxəssislərinin bilik, bacarıq və işgüzar vərdişlərinin gücləndirilməsində mühüm rolu olan praktiki seminarların avqustun 23-dək davam etməsi nəzərdə tutulur.

***XQ***

# Namizədlərin təşviqatı davam edir

**"67 saylı Sabirabad Seçki Dairəsi Milli Məclisə seçkilərə tam hazırdır. Dairə üzrə qeydiyyatda olan 53 min 901 seçici 49 seçki məntəqəsində səsvermə hüququndan istifadə edəcək. Bu hüquqdan ilk dəfə istifadə edəcək gənclərin sayı 331 nəfərdir. Yaşı 80-100 arasında olan 973 seçici var".**

Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 67 saylı DSK-nın sədri Məstalı Nuriyev deyib. O bildirib ki, dairə üzrə 9 namizəd qeydə alınıb: "Hər bir namizəd öz təşviqat materiallarını məntəqələrin ərazisində quraşdırılmış lövhələrdə yerləşdirə, o cümlədən, qapalı və açıq yerlərdə seçicilərlə görüşə bilir. Namizədlərin mübarizəsi yüksək seçki mədəniyyəti ilə müşahidə edilir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) müşahidəçiləri dairə üzrə seçkiyə hazırlıq prosesini izləyiblər".

**XQ**

# Azərbaycanın xarici siyasəti və beynəlxalq təşkilatlar BRICS və ŞƏT kontekstində

**(əvvəli qəzetin 21 avqust sayında)**

**II MƏQALƏ**

**Mən Yer kürəsinin patriotuyam. Mənim üçün hansı insanın harada yaşamasının heç bir əhəmiyyəti yoxdur... Mən öz evimi – Yer planetimi sevirəm.**

**Jak FRESKO**
**Amerikalı futuroloq**




## Təşkilatlararası yeni yanaşma

I məqalədə Azərbaycanın beynəlxalq və regional təşkilatlanmaya və bu təşkilatlar arasında münasibətlərə yeni yanaşma sərgilədiyini vurğulamışdıq. BRICS və ŞƏT məsələsinə də bu prizmada yanaşmasaq, Bakının məqsədini anlaya bilmərik. Bizim müşahidəyə görə, bir neçə prinsip vardır ki, rəsmi Bakı beynəlxalq və regional təşkilatlara münasibətdə daim gözləyir.

Birincisi, istənilən təşkilata münasibətdə Azərbaycan ön sıraya ölkənin milli və dövləti maraqlarını qoyur. Bu, Türk Dövlətləri Təşkilatına da (TDT) aiddir. Yəni rəsmi Bakı kimə və ya hansısa kənar təsirə görə addım atmır.

İkincisi, Azərbaycan, birmənalı olaraq, qarşılıqlı faydalı əməkdaşlığa istiqamətlənir. Bu, o deməkdir ki, Azərbaycan üzv olduğu regional təşkilatlarda konkret və real proqramlar üzrə işləyir. Boş vədlərə inanmır və kimsəyə belə bir vəd vermir. Qarşılıqlı fayda verən əlaqələrin yaradılması mümkün olan təşkilatla əməkdaşlıq edə bilər.

Üçüncüsü, rəsmi Bakı üçün təhlükəsizlik məsələsi çox önəmlidir. Azərbaycan təhlükəsizliyinə risk yarada biləcək heç bir təşkilata üzv olmaz. Bu məsələnin digər tərəfi Azərbaycanın hərbi bloklaşmadan tam kənarda durmasıdır. Buna görə də Bakı sosial, iqtisadi, mədəni, informasiya, nəqliyyat, loqistika, energetika və s. sferalarda əməkdaşlığa proqramlar prizmasında baxır.

Konkret BRICS və ŞƏT məsələsinə də Bakının yanaşması yuxarıda vurğulanan prinsiplər çərçivəsindədir. İlk rəsmi məlumatlara görə, BRICS-də Azərbaycanın müraciətinə müsbət yanaşırlar, lakin hüquqi prosedurlara ehtiyacın olduğunu da vurğulayırlar. Bunun da faktiki olaraq bir neçə il çəkməsi istisna deyildir. Deməli, real üzvlük məsələsi yaxın perspektivin işidir. Bununla yanaşı, Azərbaycan üçün BRICS fövqəladə addım ata bilər. Bunu da zaman göstərəcək.

Burada rəsmi Bakının Avropa İttifaqı (Aİ) deyil, BRICS istiqamətini seçdiyinə də aydınlıq gətirmək lazımdır.

## Niyə Avropa İttifaqı yox?

Avropa İttifaqı BRICS-dən fərqli təşkilatdır. Bu təşkilata üzvlük məsələsində Türkiyənin acı təcrübəsi vardır. Rəsmi Ankara 50 ildən çoxdur ki, Aİ-nin qapısı ağzında gözləməsinin səbəbini bir neçə dəfə onun mahiyyətcə "xristian klubu" olması ilə izah etmişdir. Bu anlamda Aİ ədalətli seçim etmir, özünü bəri başdan müəyyən üzvlərə "bağlayır". İndi aydın olur ki, Aİ, hətta xristian Gürcüstana da ittihamlar yağdırır. Gürcüstanın Baş naziri isə deyir ki, "biz Türkiyə kimi 50 il də gözlyə bilərik"!

Düşünmürəm ki, dövlətçilik baxımından bu cür yanaşma praqmatik və faydalıdır. Məsələn, Azərbaycan nə üçün 50 il kiminsə qapısı ağzında gözləməlidir?! Dinamik inkişaf edən dövlət kimi Azərbaycan özü yeni təşkilatlar yaradıb və mövcud olanlarla çevik əlaqələr qurub inkişafına davam edə bilər.

Başqa tərəfdən, Qərb universal xoşbəxtlik, çiçəklənmə, demokratiya və insan azadlığı məkanı deyildir. Bəlkə də Aİ-ni yaradanda hansısa həqiqi demokratik və ədalətli məqsəd olmuşdur, lakin hazırkı mərhələdə Avropa İttifaqı özündənrazı, xəbis və başqalarının güclü inkişafına qısqanclıqla yanaşan təşkilat təsiri bağışlayır.

Bundan başqa, Aİ-nin hərbi blok kimi formalaşması ehtimalı az deyildir. Avropa hər bir qonşusuna sırf özünün maraqları aspektində yanaşmışdır. Buna görə də onun hansı beynəlxalq təşkilatla əlaqələri avtonom istiqamət kimi inkişaf edir? Heç biri ilə. Aİ özününü liderliyi və həllediciliyini qəbul edən regional təşkilatla hansısa əlaqə qura bilər. Onun həyata keçirdiyi proqramlara səthi nəzər salsaq belə, bunu aydın görə bilərik. Bütün bunlara görə, Azərbaycan üçün həmin istiqamət müəyyən çərçivədə maraqlı ola bilər.

## Regionlararası yeni dönəm

Azərbaycanı əsas olaraq regionlararası əlaqələrin inkişafı kontekstində nəzərə almaq lazımdır. Çünki indi Bakı həm bir regionun lideri, həm də Yaxın Şərq, Balkanlar, Qafqaz və Mərkəzi Asiyanı əhatə edən potensiallı bir təşkilatın aparıcı ölkəsi (TDT) kimi qlobal geosiyasi və siyasi aktordur. Bundan başqa, Azərbaycanın Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatda ciddi əməkdaşlıq təcrübəsi vardır. Bu baxımdan BRICS və ŞƏT məsələsində maraqlı və əhəmiyyətli bir detal vardır.

BRICS-də Azərbaycanın iki böyük qonşusu – Rusiya və İran təmsil olunurlar. Qardaş Pakistan da ora daxildir. "Yeni İpək Yolu" layihəsi ilə sıx bağlı olduğumuz və strateji tərəfdaşlıq prosesinə başladığımız Çin də BRICS-in güclü dövlətidir

ŞƏT-də isə Azərbaycan və Türkiyədən başqa, TDT üzvləri təmsil olunmuşlar. Bundan başqa, Rusiya, İran, Çin və Pakistan həmin təşkilata üzvdürlər. Onu da unutmaq olmaz ki, bir-birindən fərqli olsalar da BRICS və ŞƏT eyni istiqamətə yönəlmiş təşkilatlardır (məsələn BRICS iqtisadi əlaqələrə üstünlük verirsə, ŞƏT təhlükəsizliyə və terrorla mübarizəyə daha çox istiqamətlənmişdir).

Deməli, BRICS və ŞƏT-in həm üzvlərdə, həm də qarşıya qoyulan strateji məqsədlərdə ortaq fəaliyyət sahələri vardır. Onların idarə edilməsində də eyni geosiyasi güc aparıcılıq edir (Çin). Bu məqamı TDT ilə müqayisə edək.

TDT-nin Mərkəzi Asiyadan olan üzvləri sıx surətdə BRICS və ŞƏT-ə bağlıdırlar. Xüsusilə, Çin, Rusiya, İran məsələsində eyni mövqeyə malikdirlər. TDT ilə fəaliyyət məkanında da kəsişən sahələr çoxdur. BRICS, ŞƏT və TDT faktiki olaraq, üzvlərin kimliyi, fəaliyyət məqsədləri və geosiyasi mənsubluq baxımından bir-biri ilə qarışılıqlı kəsişmə "sahələrinə" malik təşkilatlardır. Bu anlamda onların regionlararası təşkilatlanma şəbəkəsi yarada biləcəkləri nəticəsini çıxarmaq olar. Bu isə çoxtərəfli və çoxistiqamətli əməkdaşlıqda yeni platformadır.

## Azərbaycan yeni platformada

Yuxarıdakı müqayisələrdən təbii bir sual meydana çıxır: Mövcud şəraitdə regionlararası əməkdaşlıq platformasını yeni kriteriyalara görə ortaq məxrəcə gətirib, işlək əməkdaşlıq şəbəkəsi yaratmaq mümkün deyildirmi? Azərbaycanın xarici siyasətində bu məqam, düşünrük ki, ciddi yer tutur. Ölkə rəhbərliyinin incə diplomatik gedişlərində yekun olaraq əməkdaşlıq və təhlükəsizliyin təminində təşkilatların səylərini birləşdirmək naxışı əhəmiyyətli dərəcədə özünü göstərir. Bu istiqamətin uğurlu ola biləcəyinin əsası müasir geosiyasi, siyai və diplomatik gerçəkliklərə söykənir. Nəyi nəzərdə tuturuq?

Dünyanın tanınmış fikir sahibləri və siyasi liderləri əmindirlər ki, indi dünyada mütləq müstəqillik anlayışı yoxdur. V.Putin bu tezisi belə ifadə etmişdir: Hazırda heç kimdən asılı olmayan müstəqil dövlət yoxdur, onlar bir-birindən asılıdırlar. Türkiyə Prezidenti R.T.Ərdoğan daha lakonik fikir söyləşmişdir: "Dünya beşdən böyükdür"!

Bu mənzərəni qloballaşma yaratmışdır. Onun sıradan çıxacağına dəlalət edən heç bir fakt yoxdur – dövlətlərarası əlaqələr daha da dərinləşəcək və genişlənəcəkdir.

Bu cür ümumi geosiyasi dinamikada uğurlu siyasi-diplomatik fəaliyyət necə ola bilər? Təbii ki, əsas siyasi və diplomatik fəaliyyət dövlətlərin qarşılıqlı əlaqəsində pozitiv məqamların üstünlüyünü təmin etməyə yönəlməlidir. Praktiki olaraq, bu, çox sayda faktorların elə struktur-funksional sistemdə birləşməsini tələb edir ki, yekunda milli, regional, multiregional və qlobal özünütəşkil bir-birini tamamlasın.

Bu nəticənin reallaşması isə milli miqyasdan regionala, oradan multregionala və, nəhayət, qlobal miqyasa uyğun olan əməkdaşlıq və təhlükəsizlik platformasını hazırlamaqdan birbaşa asılıdır. Etiraf edək ki, Azərbaycan bu istiqamətdə, sözün həqiqi mənasında, öncüllərdən biridir. Faktlara baxaq.

Rəsmi Bakı Cənubi Qafqazda əməkdaşlıq və təhlükəsizliyi 44 günün içində yeni məcraya yönəltdi. Təcavüzkarı darmadağın edərək şüurlara yeritdi ki, artıq qarşılıqlı fayda verəcək əməkdaşlıq və təhlükəsizlik platforması Cənubi Qafqaz üçün əsasdır. Bunun fonunda "3+3" platforması rəsmi Bakının regional təhlükəsizliyə konkret töhfəsidir.

Azərbaycan region sərhədində dayanmadı. Türk Dövlətləri Təşkilatında (TDT) inteqrasiyanı konkret proqramlar və layihələr vasitəsilə sürətlə stimullaşdırdı. İndi təşkilat üzvlərinin hər biri məhz həmin əməkdaşlıq layihələri üzrə real əlaqələri inkişaf etdirirlər. Son Astana toplantısında Qazaxstanın regional təhlükəsizliyi birlikdə yaratmaqla bağlı verdiyi bəyanat da rəsmi Bakının təşəbbüskarı olduğu platformanın məntiqi nəticəsidir.

Nəhayət, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində qlobal miqyasda əməkdaşlıq, təhlükəsizlik və hüquqilik (insan haqları da daxil olmaqla) aspektlərində aparıcı rol oynaya bildiyini təsdiq etməkdədir. Bura pandemiya mərhələsində Azərbaycanın yardımlaşmada və paylaşmada dünyanı ədalətə səsləməsi və özünün çox sayda kasıb ölkəyə yardımlar göndərməsi daxildir. BMT səviyyəsində bu məsələni müzakirəyə çıxarması ayrıca uğurdur. İndi isə müstəmləkəçiliyə və irqçiliyə qarşı beynəlxalq mübarizənin önündə gedən, Fransanı hesab verməyə məcbur edən dövlətdir!

Azərbaycanın bu reallıqları BRICS və ŞƏT-i seçim qarşısında qoyur.

## BRICS və ŞƏT-in seçimi

Azərbaycan istəyini ifadə etmişdir. BRICS-ə üzv olmaqla faktiki surətdə geniş bir regionda yüksək potensiala malik TDT ilə Avrasiyanın iki böyük təşkilatı əlaqə qurma imkanı əldə edə bilər. Bunun əsası təbii və məntiqidir. TDT-yə daxil olan üzvlərin hamısı həm də BRICS və ŞƏT-də təmsil oluna bilərlər. Türkiyə və Azərbaycanın BRICS və ŞƏT-ə üzv olması yetərlidir.

Reallıq ondan ibrətdir ki, qlobal miqyasda BRICS və ŞƏT təsirli və həlledici uğur əldə edə bilməmişdir. Bəyanatlar, sözlər səsləndirilir, lakin real olaraq dünya geosiyasətində nə BRICS-in, nə də ŞƏT-in töhfəsi gözə dəymir. Bu cür durğunluq vəziyyətindən bu iki təşkilatı ancaq TDT çıxara biləri. Dinamik, potensiallı, ədalətli, humanitar xarakterli, təbii resurslarla zəngin, perspektivli demoqrafik dinamikaya malik, passionar və yeni üzvlərə açıq Türk Dövlətləri Təşkilatı! BRICS və ŞƏT TDT ilə birlikdə regonlararası perspektivli əməkdaşlıq şəbəkəsi yarada bilərlər. Və ya TDT ilə birləşə bilərlər! Seçim onlarındır! Bunlara görə, Azərbaycan öz müraciəti ilə faktiki olaraq yeni strateji əməkdaşlıq və tərəfdaşlıq platformasının yaranmasına yol açır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni millətçiliyinin təməl prinsipləri

**(əvvəli qəzetin 16, 17, 18, 21 avqust saylarında)**

## Njdenin tsexakronizmi – türklərə nifrət təlimi

"Bizim bəlamız o deyildir ki, dünyada Türklər vardır, həm də odur ki, türksevər ermənilər vardır." Bu fikir də Garegin Njdeyə aiddir. Doğrudan da, ermənilər arasında türksevərlər varmı? Bunu demək çətindir. Ermənistanda türkə simpatiya olan bu ölkədə yaşaya bilməz – həqiqətinə söykənərək demək mümkündür ki, burada bir nəfər belə türk yaşamırsa, deməli, xalqın ideoloji təlimi irqçi təlimdir. Çünki Njdenin ideologiyası bu ölkədə türkün yaşamasını mümkün etmir. Njdenin təlimi uzun illər iqtidarda olan Ermənistan Respublikaçılar partiyasının rəsmi ideoloji kursu olub və bu xətt indi də davam etdirilir.

Njde 1932-ci ildə Bolqarıstanda nəşr etdirdiyi "Soy ruhunun hərəkatı" adlı kitabı və daha sonra "Xrofk" jurnalında çıxan "Tsexakronutyun bir zəfər gücüdür" adlı məqaləsi ilə erməni nasional-sosializminin əsaslarını ortaya qoyub.

1933-cü ildə Parisdə "Daşnaksütyun" partiyasının 12-ci konqresi keçirilməli idi. Amma, o, baş tutmadı. Njde tərəfindən konqresə təqdim edilən erməni diasporunun antitürk ruhunda olan sənədləri, bəyanatları, təlimatları erməni mətbuatında yayılmışdı. Bunlar üç əsas prinsipi ehtiva edirdi:

1. Erməniliyin xaricdə funksional fəaliyyətini genişləndirərək onu Ermənistanı müdafiə etmək qabilyyəti durumuna gətirmək.

2. Erməni gəncliyinin partiyadan kənar fəaliyyətini gücləndirmək.

3. Bütün gücləri Türkiyəyə qarşı bir cəbhədə səfərbər etmək.

Bu tezisləri həyata keçirmək üçün 1933-ci ildə Njde partiya tərəfindən ABŞ-yə ezam edilmişdi. Artıq Njdeye iki vəzifə verilmiş və o, qısa müddət ərzində Birləşmiş Ştatlarda Tsexakron hərəkatını yaratmalı idi. Bundan başqa, ona əlavə tapşırıq da verilmişdi: Erməni terrorçu Kopernik Tandırçyanla birlikdə Türkiyənin ABŞ-dəki səfiri Muxtar bəyə sui-qəsd təşkil etmək.

"Mən Yer kürəsindəki ilahi izləri öz soyumda oxudum, gördüm, öpdüm, təzim etdim və tsexakrona çevrildim" – deyərkən Njde ermənilərin ilahi soydan gəldiyini iddia edir və deyirdi: "Soy Allah kimi birincidir. Erməni soyu da Allah kimi əsrlərin şahididir, o, əbədi olaraq erməndir və Allahın ortağıdır".



Njdeyə görə, soy ruhun və qanın sintezidir, psixoloji anbardır və eyni zamanda, bioloji quruluşdur, insan etnosuna bir-birindən fərqlilik, özünəxaslıq xarakteri verir. Onun fikrincə, tsexakronutyun bu cəhətləri qoruyub saxlamaq üçün soyun əlində bir əbədi varlıqdır. Bu erməni varlığını "əbədiləşdirmək" və erməni kimi yaşamağı özündə ehtiva edir. Ermənının özünüdərki üçün bu təlimə inam da aşılanmalıdır. Kronçular bunu etməlidirlər.

Tsexakron müqəddəs soyu tanıyır və erməni xalqı ilə bağlı bunları elan edir: "Erməni olmağa o adam layiq deyildir ki, onun üçün bizim planetdə "erməni" kimi yaşamaqdan daha üstün şeylər vardır" və yaxud, "erməni olmaqdan əvvəl də sən erməni olmalısan!", "erməni öz tarixində ermənidən daha öncə adam olmuşdur, bu xüsusiyyətinə görə də onun faciələri qaçılmaz olmuşdur".

Njdeyə görə, erməni xalqı aşağıda izahını verəcəyimiz kultlarla öz həyatını davam etməlidir. Bunlar: Vətən kultu, qan kultu, dil kultu, torpaq uğrunda öz həyatını qurban etmə kultu, ulular kultu, güc kultu, öndərlik kultudur.

Erməni üçün dəyişməyən prinsiplər bunlardan ibarətdir:

Vətən kultu: Erməni soyunun doğum yerinə hörmətidir. Erməni gənci bütün səyini Ermənistanın ərazisini genişləndirməyə sərf etməli və onun bundan böyük xoşbəxtliyi olmamalıdır.

Qan kultu: Tsexakronutyun qan təmizliyini əsas kimi qəbul edir, digər xalqlarla evlilikləri qəbul etmir.

Dil kultu: Tsexakronutyun hər bir ermənının bir-birilə danışarkən yalnız erməni dilini istifadəni tələb edir. Erməni dilini bilməyənlər soyun nümayəndəsi sayıla bilməzlər. Yəni, erməni düşüncəsi böyük ölçüdə dillə bağlıdır, əgər dil olmasa xaricə dağılmış ermənilərin birliyini təmin etmək mümkün olmaz. (Njde SSRİ dövründə bolşevik zülmü altında yaşayan erməniləri özündən saymır, onları qəbul etmir və bütün ümidlərini diaspora bağlayırdı).

Öz həyatını qurban etmə kultu: Soyunu qorumaq üçün bu yolda ölmək şərəfdir və "... Aslan kimi mübarizə etməliyik".

Ulular kultu: Tsexakronutyun nəsillər arasında əlaqənin davam etməməsini ən böyük çatışmazlıq olaraq qəbul edir. Xüsusilə, ana vətən torpaqları üzərində fəaliyyətin davamı, yeni nəsil üçün mənəvi qida qaynağı olmalıdır.

Güc kultu: Njdeye görə, güclü qazanan olar, amma haqlı olmaz; dünya güclü olanın qarşısında boyun əyər.

Öndərlik kultu: Hər soyun başında xalqın taleyini müəyyən edən bir lider olmalıdır. Tsexakronutyun soy üzvlərinin öndərin iradəsinə tabe olmalarını tələb edir. O yazırdı: "Ermənilik nə vaxtsa türkləri bağışlayacaq, amma onun qarşısında diz çökmədən, onu diz çökdürərək…"

Njdeyə görə, ermənilik (armenizm) hər şeydən üstündür. "Sən əvvəl ermənisən, sonra insansan! Ermənilik hər şeyin fövqündədir!".

Buna görə də tsexakronutyun ermənilərin maraqlarını hansısa xalqın mənfəətindən daha üstün tutar. Məsələn, Tsexakron hərəkatının ilk nizamnaməsinin ana səhifəsi bu şüarla başlayır: "Lozanna? (1923-cü Lozanna müqaviləsi nəzərdə tutulur – red.) Xeyr, heç bir zaman qəbul edilə bilməz". Və fikir belə davam edir: "Bir xalqın ana torpağı digər xalqın daimi vətəni ola bilməz". "Erməni düşüncəsinə görə, Lozanna konfransında ermənilərin Sevr anlaşması ilə onlara verilməsi nəzərdə tutulan torpaqlar Türkiyəyə keçdi, erməni iddialarına birdəfəlik son qoyuldu. Erməni heyəti Türkiyənin təkidi ilə Lozanna konfransına daxil edilmədi. Onlar ümid etdiklərinin heç birini ala bilmədilər.

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında növbəti ünvan: BRICS

(əvvəli 1-ci səhifədə)



Bu məsələ Azərbaycan Respublikasında dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 19-da mətbuata bəyanatında da öz ifadəsini tapıb. V.Putin çıxışında regional gündəliyə, eləcə də respublikamızın Xəzər regionunda və Cənubi Qafqazda oynadığı müsbət rola toxunaraq xarici siyasətdə ölkələrimizin beynəlxalq hüququn aliliyi, suverenlik və daxili işlərə müdaxilə edilməməsi prinsiplərinə qətiyyətlə tərəfdar olduqlarını bildirib. Rusiya Prezidenti daha sonra vurğulayıb: "Rusiya və Azərbaycan çoxtərəfli platformalar daxil olmaqla, həmçinin BMT və Müstəqil Dövlətlər Birliyində öz səylərini sıx əlaqələndirirlər. Bu ilin oktyabrında İlham Heydər oğlunu MDB Dövlət Başçıları Şurasının iclasında, həmçinin Kazanda keçiriləcək BRICS sammiti çərçivəsində "autriç" formatında görüşdə görməyə şad olacağıq".

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə də ölkəmizin BRICS-ə daxil olmaq üçün rəsmi müraciət etdiyini bildirib. Xatırladaq ki, iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamənin 4.5-ci bəndində Azərbaycan tərəfinin BRICS-ə daxil olmaq arzusu ifadə edilib və Çin tərəfindən isə BRICS əməkdaşlığında Azərbaycanın iştirakı alqışlanıb. Yeri gəlmişkən, 2006-cı ildə yaradılan BRICS (BRİKS) Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası (CAR), Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirliklərini özündə birləşdirən hökumətlərarası təşkilatdır. BRICS-in əsas məqsədi üzv dövlətlər arasında diplomatik, təhlükəsizlik və iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Xatırladaq ki, əvvəlcə investisiya imkanlarını müəyyənləşdirən qruplaşma hökumətləri 2009-cu ildən indiyədək hər il rəsmi sammitlərdə toplaşaraq çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin yuxarıda xatırlatdığımız bəyanatında vurğulandığı kimi, BRICS-ə üzv dövlətlərin liderlərinin sammitinin bu il oktyabrın 22-24-də Tatarıstan Respublikasının paytaxtı Kazanda keçiriləcəyi nəzərdə tutulub. Bununla əlaqədar Rusiyanın dövlət başçısının imzaladığı sərəncama əsasən, Kremlin xarici siyasət məsələləri üzrə müşaviri Yuri Uşakov sammitə hazırlıq üzrə təşkilat komitəsinin sədri seçilib. Tatarıstan Respublikasının paytaxtı sammitin keçirilmə yeri kimi təsadüfən seçilməyib. Belə ki, Kazan dünya liderlərinin görüşünün layiqli səviyyədə təşkili üçün lazımi infrastruktura malikdir və bütövlükdə, region müxtəlif millətlərin və konfessiyaların nümayəndələri arasında münasibətlərin nümunəsidir.

BRICS sammitinə hazırlıq istiqamətində qısa müddət ərzində mühüm işlər görülüb. Bununla əlaqədar BRICS Beynəlxalq Forumu ilə beynəlxalq ictimai təşkilat olan Dünya Xalqları Alyansı arasında razılaşma əldə edilib. Sənəd BRICS Beynəlxalq Forumunun prezidenti Purnima Anand ilə Dünya Xalqları Alyansının baş katibi, sülh səfiri Aleksandr Şapiro-Suliman tərəfindən imzalanıb.

Kazanda BRICS ölkələrinin əsas müzakirə mövzusuna gəldikdə isə qeyd edək ki, bu sammitə ciddi hazırlıq görüldüyü indiki vaxtda CAR-ın Rusiya Federasiyasındakı səfiri Mzuvukile Jeff Maketuka müttəfiq ölkələrin gələcəkdə istifadə üçün hansı ödəniş sistemini seçəcəklərinə qərar verməli olduqları fikrini ifadə edib. Diplomatın sözlərinə görə, yekun qərar hələ qəbul edilməsə də, CAR-ın qlobal tərəfdaşlarla ticarət imkanlarını gerçəkləşdirən Afrika ödəniş sisteminə üstünlük verəcəyi gözlənilir.

Bundan əlavə, Maketuka CAR-ın BRICS çərçivəsində milli valyutalarda qarşılıqlı hesablaşmalar aparmaq təşəbbüsünü vurğulayıb. Bu mövqe iqtisadi müstəqilliyi gücləndirməyə kömək edir və beynəlxalq əməliyyatlarda hər hansı bir valyutanın, o cümlədən dolların hökmranlığının qarşısını alır. Səfir vurğulayıb ki, milli valyutalardan istifadənin iştirakçı ölkələrin iqtisadiyyatı üçün həm müsbət, həm də mənfi tərəfləri var. Rusiya isə müstəqil BRICS hesablaşma və ödəniş sistemi yaratmağı təklif edir. Bu haqda Rusiyanın maliyyə naziri Antona Siluanov Braziliyanın "Folha de S.Paulo" qəzetinə müsahibəsində qeyd edib: "Rusiya builki sədrliyi çərçivəsində maliyyə mövzusu kimi beynəlxalq valyuta-maliyyə sisteminin təhlili və nəzərdən keçirilməsi, onun necə işlədiyi, iştirakçısı olan bütün ölkələrin maraqlarını nə dərəcədə effektiv şəkildə təmin etməsi məsələsini qaldırmaq istəyir. Biz siyasətdən kənar və yeni rəqəmsal texnologiyalara əsaslanan öz müstəqil hesablaşma və ödəniş sistemimizi yaratmağı təklif etmək istəyirik".

A.Siluanovun fikrincə, hazırda dünya iqtisadiyyatının mərkəzi BRICS ölkələrinə, eləcə də Şərqə doğru dəyişir. "Ticarət əlaqələrinin uğurla qurulması üçün sabit ödəniş sisteminin olması vacibdir. Ona görə də düşünürəm ki, bu mövzu bizim BRICS tərəfdaşlarımız üçün maraqlı olacaq. Bu, innovativdir, hazırda mövcud olan sistemlər baxımından hesablaşmalarda, maliyyə mesajlarının ötürülməsində, maliyyə institutlarının fəaliyyəti məsələlərində irəliyə doğru bir addımdır", – nazir əlavə edib.

Göründüyü kimi, BRICS ölkələri bir sıra malların hesablaşması üçün dollardan uzaqlaşmaq istəyir. BRICS neft və zərgərlik üçün ödənişlərdə dolları əvəz etmək qərarına gəlib və gələcəkdə qızıla əsaslanan vahid valyutanı nəzərdən keçirir. Ekspertlərin fikrincə, yaxın gələcəkdə dollardan uzaqlaşma fantastik görünür. Ən real variant isə assosiasiya çərçivəsində nağdsız ödəniş vasitələrinin və ya opsion olaraq BRICS-ə üzv ölkələrin valyuta səbətindən ibarət hansısa ehtiyatın yaradılmasıdır.

# Şaxələndirmə neft-qaz siyasətimizin strateji uğurudur

## Yarım ildə magistral kəmərlərlə 19 milyon tondan çox neft və 20 milyard kubmetrdən artıq qaz nəql edilib

**Karbohidrogen ehtiyatlarının zənginliyi ilə seçilən Azərbaycanda 175 ildən çoxdur ki, sənaye üsulu ilə neft çıxarılır. Ötən müddətdə bu qədim diyarın "qara qızıl"ı müxtəlif yollarla dünya bazarlarına ixrac edilib. Müstəqillik illərində isə özünün yeraltı sərvətlərinin əsl sahibinə çevrilmiş Azərbaycan, həm də şaxələndirilmiş neft və qaz kəmərləri sisteminin yaradılmasına nail olub.**



Məhz dövlətimizin siyasi rəhbərliyinin təşəbbüsü və mətin iradəsi sayəsində son 25-26 il ərzində Xəzər sahillərindən Avropa qitəsinədək minlərlə kilometr uzunluğunda neft və qaz kəmərləri çəkilib. İndi həmin infrastruktur ölkəmizin ixrac potensialını artırmaqla yanaşı, "köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə də mühüm töhfələr verir.

Heç şübhəsiz, şaxələndirilmiş nəql marşrutlarına malik olması Azərbaycan dövlətinin müstəqil enerji siyasətinin məntiqi nəticəsi, ölkəmizin böyük üstünlüyüdür. Otuz il əvvəl Bakıda dünyanın transmilli neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandıqdan sonra ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan özünün neft-qaz sərvətlərini dünya bazarına çıxarılması istiqamətində müstəqil qərarların qəbul edilməsinə nail olub. Öncə "Əsrin müqaviləsi"nin ilkin neft layihəsi çərçivəsində "Çıraq" platformasından hasil edilən xam neftin Şimal istiqaməti ilə beynəlxalq bazarlara ixracı üçün Bakı–Novorossiysk kəməri əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

Neftimizin Qərb istiqaməti ilə ixracını təmin etmək məqsədilə inşa olunmuş Bakı–Supsa kəməri isə 1999-cu ilin aprel ayında istismara buraxılıb. Bununla belə, getdikcə artmaqda olan neft həcmlərini dünya bazarına çıxarmaq üçün Azərbaycanın daha geniş imkanlara malik ixrac infrastrukturuna ehtiyacı var idi. Bu layihənin də əsas təşəbbüskarı və memarı Ulu öndər olub. Məhz onun qətiyyəti və siyasi iradəsi nəticəsində "Üç dənizin əfsanəsi" kimi tanınan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsi həyata vəsiqə alıb.

"Şahdəniz" yatağının istismara verilməsi isə Azərbaycanı, həm də dünyanın potensial qaz ixrac edən ölkəsinə çevirib. Onu da qeyd edək ki, Azərbaycan dövlətinin uzaqgörən və məqsədyönlü siyasətinin nəticəsi olaraq asas ixrac boru kəməri ilə eyni dəhlizdə "Şahdəniz" qazının ixracı üçün tələb olunan Bakı–Tbilisi–Ərzurum kəməri (Cənubi Qafqaz boru kəməri) də çəkilib. 2007-ci ilin əvvəlindən Azərbaycan qazının Gürcüstan və Türkiyəyə ixracına başlanılıb. Sonrakı illərdə isə "mavi yanacağ"ın Avropaya çatdırılması üçün Cənub Qaz Dəhlizi və onun əsas seqmentləri olan Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərləri inşa edilib. Bununla yanaşı, istismarda olan Cənubi Qafqaz boru kəmərində əlavə genişləndirmə işləri həyata keçirilib.

Beləliklə də, Azərbaycanın neft və qaz ehtiyatlarının sərbəst şəkildə dünya bazarına çıxarılması üçün təmin etdiyi müstəqil enerji siyasəti özünü tam doğruldub. Yeri gəlmişkən, hazırda dünyada neft və qaz hasil edən ölkələrin heç də hamısı müstəqil enerji siyasəti həyata keçirmək imkanına malik deyil. Təsadüfi deyil ki, bu mühüm məqama toxunan Prezident İlham Əliyev deyib: "Şaxələndirmə enerji təhlükəsizliyinin başlıca amillərindəndir. Biz isə enerji strategiyamızın həyata keçirilməsinin ilk günündən etibarən şaxələndirmə üzərində çalışmışıq. Bunun nəticəsində bizim şaxələndirilmiş ixrac marşrutlarımız var –müxtəlif istiqamətə uzanan 3 neft boru kəməri və 4 qaz boru kəmərimiz mövcuddur".

Qeyd etdiyimiz kimi, ölkəmizin ixrac potensialının, həmçinin əksər dünya dövlətləri ilə ticarət dövriyyəsinin artırılmasına xidmət edən şaxələndirilmiş ixrac sistemi, büdcə gəlirlərimizin formalaşdırılmasına da mühüm töhfələr verir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycan magistral neft kəmərlərindən 538 milyon 277,6 min manat gəlir əldə edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çoxdur. Xatırladaq ki, 2023-cü ilin ilk yarısında sözügedən göstərici 535 milyon 337,2 min manat təşkil edib.

Yeri gəlmişkən, cari ilin birinci yarısında Azərbaycanda neft kəmərləri ilə 19 milyon 238,6 min ton neft nəql edilib. Nəqletmənin 14 milyon 468,7 min tonu və ya 75,2 faizi Bakı–Tbilisi–Ceyhan neft ixrac kəməri (BTC) ilə həyata keçirilib. Ümumilikdə isə, 2023-cü ildə Azərbaycanın magistral neft kəmərləri ilə 39 milyon 753,2 min ton neft nəql olunub ki, bu da illik müqayisədə 5,2 faiz çoxdur. Ümumi ixracın isə 30 milyon 191,6 min tonu və ya 75,9 faizi BTC-nin payına düşüb. İl ərzində ölkəmiz neft ixracından 1 milyard 101 milyon 741,9 min manat gəlir əldə edib.

Qaz ixracına gəldikdə isə, cari ilin yanvar-iyun aylarında Azərbaycanın magistral qaz kəmərləri ilə 20 milyard 40,7 milyon kubmetr qaz nəql edilib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən1,3 faiz çoxdur. Hesabat dövründə qaz nəqlinin 11 milyard 418,9 milyon kubmetri və ya 55,6 faizi Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib. Bu ilin birinci yarısında ölkəmizin "mavi yanacaq" ixracından əldə etdiyi qazanc isə 1 milyard 359 milyon 813 min manat təşkil edib. Bu da ötən ilin müvafiq dövründəkindən 7,8 faiz çox olub. 2023-cü ildə isə magistral qaz kəmərləri ilə nəql olunmuş 39 milyard 283,3 milyon kubmetr "mavi yanacaq" hesabına Azərbaycan 2 milyard 516 milyon 82,5 min manat gəlir əldə edib. İllik qaz nəqlinin 21 milyard 800,1 milyon kubmetri Cənubi Qafqaz boru kəmərinin payına düşüb.

# Ağdamda led lampaları buraxılacaq



**"LEDLINE" MMC-yə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib.**

İZİA-nın məlumatına görə, şirkət sənaye parkının 1 hektar ərazisində led lampaları istehsalı müəssisəsi inşa edəcək. İnvestisiya dəyəri 4,5 milyon manat olan layihə çərçivəsində 44 nəfərlik daimi iş yeri yaradılacaq. Müəssisədə istehsal ediləcək məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

# Yanacaq sektoruna 3,3 milyard manat investisiya yatırılıb

**Cari ilin yanvar–iyul aylarında ölkənin neft-qaz sektoruna 3 milyard 298 milyon manat sərmayə yönəldilib. Dövlət Statistika Komitəsindən bildirilib ki, bu dövrdə adıçəkilən sahəyə yatırılan investisiyaların həcmi 0,4 faiz artıb.**



Qeyd edək ki, 2023-cü ilin müvafiq dövründə həmin göstərici 3 milyard 237 milyon manat səviyyəsində olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Milli neft şirkətimizin enerji keçidinə ilkin töhfələri




**(əvvəli 1-ci səhifədə)**

SOCAR son bir ildə “yaşıl” enerjiyə keçid istiqamətində bir sıra mühüm sazişlərə imza atıb. Həmin sənədlərdə ölkədə bir külək və iki günəş elektrik stansiyası layihələri öz ifadəsini tapıb. Beləliklə, ümumi gücü 1 GVt olan 3 stansiyanın təməlinin qoyulması respublikamızda “yaşıl” enerjinin gerçəkləşdirilməsi ilə əlaqədar növbəti addımlardan biri olmaqla bərabər, həm də COP29-un ev sahibi kimi “yaşıl” dünya naminə enerji keçidinə sadiqliyini göstərir.

Bu layihələrin icrası ilə illik 2,3 milyard kVt-saat elektrik enerjisinə qənaət olunacaq ki, bunun da nəticəsində 1 milyon ton karbon emissiyasının atılmasının qarşısı alınacaq. Beləliklə, təməli qoyulan 3 layihə ölkəmizin “yaşıl” gündəliyinin məqsədlərinə uyğun olmaqla davamlı inkişafın gerçəkləşməsinə töhfə verəcək.

SOCAR və bp şirkəti arasında birgə əməkdaşlıq nəticəsində hazırda Cəbrayıl rayonunda “Şəfəq” Günəş Enerji Stansiyası tikilir. Bundan əlavə, SOCAR və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətləri arasında Azərbaycanda “yaşıl” gübrə istehsalına dair imzalanan əməkdaşlıq sazişi çərçivəsində layihə həyata keçirilir.

SOCAR ilə “China Energy International Group Co.Ltd” şirkəti arasında isə ölkə ərazisində bərpaolunan enerji layihələrinin inkişafını, tərəflər arasında təcrübə mübadilələrinin təşkilini, texniki və maliyyə cəhətdən potensial təşəbbüslərin reallaşdırılması üçün optimal yanaşmanı, eləcə də bu istiqamətdə digər məsələləri nəzərdə tutan birgə əməkdaşlığa dair saziş imzalanıb.

Qeyd olunanlarla yanaşı, SOCAR alternativ və bərpaolunan enerji layihələrinin genişləndirilməsi, “mavi” hidrogen, emissiyaların idarə edilməsi, geotermal enerji, emissiyaların azaldılması həllərinin işlənib hazırlanması üzrə ən yaxşı təcrübələrin əldə edilməsi məqsədilə Abu Dabi Milli Neft Şirkəti (ADNOC) və “Sirius” Beynəlxalq Holdinqi ilə də əməkdaşlıq sazişləri imzalayıb.

Azərbaycanın adıçəkilən milli neft şirkətinin bu kimi layihələri və strateji təşəbbüsləri ölkəmizin dayanıqlı inkişaf perspektivində mövqeyinin daha da möhkəmləndirilməsində əvəzsiz rol oynayacaq. Müəyyənləşdirilən strateji hədəflər SOCAR-ın ölkəmizin dinamik inkişafındakı önəmli rolunu daha möhkəmləndirəcək.

Beləliklə, qeyd olunan nəhəng layihələr, görülən işlər deməyə əsas verir ki, SOCAR qabaqcıl beynəlxalq enerji şirkətinə çevrilmək yolunda inamla addımlayır.

# COP29-dan dünyaya açılacaq pəncərə

## Konfrans günlərində Bakıdan “Daily show” TV verilişi yayımlanacaq

**COP29 Azərbaycan Əməliyyat Şirkəti bu ilin noyabrında Bakıda keçiriləcək COP29 iqlim konfransı zamanı qlobal müstəvidə yayımlanacaq gündəlik televiziya proqramını təqdim edir. Əməliyyat Şirkətindən verilən məlumata görə, bu veriliş qlobal auditoriyaya COP hadisələrinin geniş xülasəsini çatdırmaq məqsədi daşıyır və konfransla bağlı məlumatların əlçatanlığının gerçəkləşdirilməsinə xidmət edir.**




Veriliş COP29 konfransı keçirilən günlərdə tədbirin məkanı olan Bakı Olimpiya Stadionunda yerləşən studiyadan yayımlanacaq. Yayım televiziya şirkətləri, onlayn video-yayım platformaları və COP29-un rəsmi kanalları vasitəsilə həyata keçiriləcək. Veriliş təfərrüatlı müsahibələr, ekspert təhlilləri və konfransa dair digər geniş məlumatları əhatə edəcək.

Mürəkkəb texniki mövzuların qlobal auditoriya üçün əlçatan kontentə çevrilməsinə fokuslanacaq proqram sayəsində izləyicilər COP fəaliyyətlərini, burada iştirak edən müxtəlif rəsmiləri, həll yolları və aktual iqlim hekayələrini, eləcə də bir sıra digər gündəmdə olan məsələlərlə bağlı ən yeni məlumatları əldə edə biləcəklər.

COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev verilişin mahiyyəti ilə bağlı deyib: “Dünyada iqlim dəyişmələrinin təsirləri daha çox hiss olunduqca, informasiyaya olan tələbat da durmadan artır. Biz havanın artan temperaturu və bu problemin həlli ilə bağlı çoxalan narahatlıq fonunda iqlim fəaliyyətlərini qlobal auditoriyaya daha aydın və anlaşılan formatda çatdırmaq istəyirik. Gündəlik veriliş isə bu məqsədimizə çatmağa xidmət edən addımlardandır”.

Qeyd edək ki, “Daily show” verilişi qlobal tədbirlərdə yüksək keyfiyyətli yayımların təşkilində zəngin təcrübəyə malik Böyük Britaniyanın media şirkətlərindən biri olan “Hi Impact” tərəfindən hazırlanacaq.

Verilişin daha geniş auditoriyanı əhatə etməsi və təsir dairəsinin genişləndirilməsi üçün COP29 Əməliyyat Şirkəti layihə üzrə tərəfdaşlıq imkanlarının dəyərləndirildiyini də qeyd edib. “Daily show” layihəsində tərəfdaşların müəyyən edilməsi üçün seçim prosesi 2024-cü il sentyabr ayının sonuna qədər davam edəcək, seçim nəticələrinə dair qərar isə COP29 Sədrliyi və UNFCCC tərəfindən veriləcək.

# Abşeronun neftdən təmizlənmiş əraziləri abadlaşdırılır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında – COP29-da bu gün beynəlxalq aləmi ciddi narahat edən bir sıra ekoloji problemlərin həlli yolları diqqət mərkəzində olacaq, konfrans iqlim dəyişikliyinə qarşı mühüm addımların atılacağı böyük qlobal forum kimi diqqət çəkəcək. Tədbir çərçivəsində torpağın çirklənməsinin qarşısının alınması məqsədilə müəyyən strategiyaların işlənib hazırlanması da müzakirə ediləcək. Bu barədə Azərbaycan Texniki Universitetinin kafedra müdiri, professor Fəxrəddin Yusubov söhbət zamanı dedi:**

– Ölkəmizin sənaye potensialının üçdə iki hissəsi, əhalisinin isə 40 faizi Abşeron yarımadasında yerləşdiyindən ərazi daha çox antropogen təsirə məruz qalıb. Burada neft yataqlarının düzgün istismar olunmaması, ətraf mühitin mühafizəsi üzrə elementar tələblərə riayət edilməməsi landşaft sahələrinin çirklənməsinə səbəb olub. Respublikanın kimya, energetika, metallurgiya, maşınqayırma, neft hasilatı və emalı müəssisələrinin böyük hissəsinin məhz bu zonada fəaliyyət göstərməsini də nəzərə alsaq, o zaman vəziyyətin gərginliyi barədə aydın təsəvvür yaranar.



**– Abşeronda neft çıxarılarkən çox vaxt ətraf mühitin qorunmasına diqqət yetirilməməsi barədə nə deyə bilərsiniz?**

– Yarımadada neftin sənaye üsulu ilə çıxarılmasından ötən 170 ildən çox bir dövrdə istehsal olunan neftin ümumi həcmi 2 milyard 220 milyon tona yaxın olub. Hasilat prosesində bir çox hallarda ətraf mühitin qorunmasına əhəmiyyət verilməyib. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində neftin çıxarılmasında, torpağın anbarlara yığılması və daşınmasında, eləcə də emalında primitiv texnologiyalardan istifadə edilməsi, keçmiş SSRİ dövründə isə neft istehsalının ətraf mühitin qorunmasından üstün tutulması Abşeronun neftlə, neftli sularla çirklənməsinə səbəb olub. Torpaqlarla yanaşı, bir çox təbii göllər və gölməçələr də neft quyularının tullantı suları və qazma məhlulları ilə çirklənərək “ölü” vəziyyətə gətirilib. Quyuların ətrafında torpaq bəndlərdən yaradılan neft anbarları kimi istifadə olunan sahələr isə neft və lay suları ilə doldurulub.

Neft, neft məhsulları və lay suları, dərinlik-buruq süxurları və məhlulları Abşeron torpağını həm eninə, həm də dərinliyinə görə müxtəlif dərəcədə çirkləndirib. Neftin əraziyə axıdıldığı sahələrdə torpağın xassələrindən asılı olaraq neft yalnız üst səthdə qalıb, boş süxur və yumşaq yerlərdə isə dərinliklərə qədər hopub. Beləliklə, əksər mədən ərazilərində mazutlaşmış gölməçələr yaranıb.

Abşeron yarımadasında 20-22 min hektara yaxın ərazi neft və neft məhsulları, məişət-sənaye, tikinti və s. tullantılarla çirklənib. Bunun da 10,1 min hektarı lay suları və neft axıdılmış sahələr, qalanı isə su hövzələridir. Bu ərazilərdə neftlə çirklənmiş torpaqlar hektarlarla sahəni əhatə edib. Onların çirklənmə dərəcəsi 1-2 faizdən 30-40 faizə qədər, dərinliyi isə 2-3 metr və daha çoxdur. Bu, mövcud yarımsəhra təbii şəraiti olan torpaqların bərpa imkanlarının sıfıra enməsindən xəbər verir.

Bundan başqa, torpağın neft və neft məhsulları ilə çirklənməsi həmin ərazilərdə bütün ekosistemi sıradan çıxarıb, bu sahələrdə yaşayan canlıların biomüxtəliflik zəncirini zədələyib, bitki örtüyünə və canlı aləmə ciddi təsir göstərib, təbii biosenozların bütün həlqələrinin ciddi dəyişməsinə, hətta bəzilərinin tamamilə transformasiyasına gətirib çıxarıb. Nəticədə canlıların və bitkilərin sayı və növ tərkibi dəyişib.

Torpağın münbitlik göstəriciləri, mexaniki-fiziki, kimyəvi göstəriciləri, tənəffüsü, ondakı mikroorqanizmlərin sayı və müxtəlifliyi pozulub. Belə halda həmin ərazilərdə əkindən istifadə etmək və aqrotexniki tədbirlər görmək mümkün olmadığı üçün neftlə çirklənmə ilə yanaşı, şoranlaşma da baş verib.

Beləliklə, əhalinin torpaqlara ehtiyacı olduğu halda geniş ərazilər lay suları ilə örtülüb, tullantı poliqonlarına çevrilib. Halbuki həmin torpaq sahələri istifadə üçün yararlı olsa idi, paytaxtın ərzaq məhsulları ilə təminatında önəmli rol oynaya bilərdi.

**– Gələcəkdə daha ciddi problemlərlə qarşılaşmamaq üçün nə etmək lazımdır?**

– Abşeron yarımadasında neft tullantıları və digər zərərli maddələrlə çirklənmiş torpaqların və göllərin bərpası məqsədilə “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı”na uyğun olaraq 2006-cı ildən başlayaraq, bu torpaqların bərpası üzrə irimiqyaslı işlərin həyata keçirilməsinə başlanılıb. Əvvəlcə neftlə çirklənmiş ərazilərdə torpağın təmizlənməsi tədbirlərinin seçilməsi üçün monitorinq aparılıb, texnogen-pozulma xüsusiyyətlərinə əsasən, çirklənmə dərəcələri təyin olunub. Buna uyğun da indiyədək 1060 hektar neftlə çirklənmiş ərazidə təmizləmə aparılıb. Həmin sahələrdə parklar, yaşıllıqlar salınıb.

*Müsahibəni hazırladı:*
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Naxçıvanın “Yaşıl enerji” Konsepsiyası

**Prezident İlham Əliyevin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nda muxtar respublikanın “Yaşıl enerji” Konsepsiyasının hazırlanması, dövlət-özəl tərəfdaşlığı ilə alternativ, habelə bərpaolunan enerji mənbələrinin yaradılmasının davam etdirilməsi, yeni istilik elektrik stansiyasının tikintisi nəzərdə tutulub.**



Muxtar respublikanın Dövlət Energetika Xidmətinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, Naxçıvanın “Yaşıl enerji” Konsepsiyasının hazırlanması məqsədilə məsləhətçi şirkətlərin cəlb edilməsi üçün Energetika Nazirliyi tərəfindən dövlət satınalması həyata keçirilib. Naxçıvan Muxtar Respublikası ərazisində “Yaşıl enerji” layihələrinin reallaşdırılması üçün Əmlak Məsələləri Dövlət Xidmətinin təklif etdiyi əkinə yararsız torpaq sahələri də müəyyənləşdirilib. Bununla da qədim diyarın, ümumilikdə, 7992 hektar əkinə yararsız sahələrində “Yaşıl enerji” layihələrinin reallaşdırılması nəzərdə tutulub.

***Səbuhi HƏSƏNOV***
***XQ-nin bölgə müxbiri***

# “Qlobal İqlim Dəyişmələrinin biznes çağırışları”

**Azərbaycan–Türkiyə İş adamları Birliyi (ATİB) “Qlobal iqlim dəyişmələrinin biznes çağırışları” mövzusunda müzakirələr keçirib. Tədbir COP29 və “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “yaşıl” hədəflərin təşviqinə həsr olunub.**



Qlobal istiləşmələrin hər il dünyanın bir çox bölgəsində müxtəlif təbii fəlakətlərə, o cümlədən yanğınlara səbəb olduğunu qeyd edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı bu fəlakətlərin Türkiyədən də yan keçmədiyindən, son illərdə ölkənin bir neçə bölgəsində genişmiqyaslı meşə yanğınlarının baş verdiyindən bəhs edib, iqlim dəyişmələrinin fəsadları ilə mübarizənin əhəmiyyətini vurğulayıb.

ATİB İdarə Heyəti sədrinin müavini Rəna Məmmədova isə çıxışında rəhbərlik etdiyi şirkətin enerji istehlakının və tullantıların azaldılması, ekoloji tarazlığı pozmayan istehsal proseslərinin tətbiqi və s. sahələrdə fəaliyyətindən danışıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Xalq qəzeti”nin əsrdən uzun söz marafonu

## *Qocaman avanqard nəşr yubileyini gənclik axtarışları ilə qarşılayır*

**Xalqın qəzeti – “Xalq qəzeti”nin 105 yaşı tamam olur. Özünün yüz illik fəaliyyətinin bir sıra dönəmlərində çətin sınaqlardan keçmiş bu qəzet, sözün həqiqi mənasında klassik mətbuatımızın məktəb səviyyəsində olan bir nümunəsidir. Əlbəttə, biz bəzən keşməkeşli illərin ideoloji kanonlarını nəzərə almadan sovet mətbuat sisteminin “günahkarını” asanlıqla tənqid edirik. Amma belə yerdə zamanın tələblərini də mütləq nəzərə almalıyıq. Bu gün yaradıcı kollektivin keçmiş “Kommunist” qəzetinə seçdiyi “Xalq qəzeti” adı, bu mətbuat orqanının tarix və müasirlik prinsipinin çox düzgün və ədalətli istiqamətini müəyyən edir.**



XALQ qəzeti

Азәрбајҹаныи дәрсләри

УЗУМ ЈЕТИШИБ



Heydər ƏLİYEV: Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır

XALQ QƏZETİ

Heydər Əliyev – liderlər əsrinin lideri



“Xalq qəzeti” – xalqın qəzeti

Xalq qəzeti

Azərbaycanın yüksəliş marafonu davam edir

7 ayda 70 milyard 544 milyon manatlıq ÜDM istehsal olunub

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

Gündəlik ictimai-siyasi qəzet

İqlim dəyişikliyi dünyada ümumi tərəqqini

“Xalq qəzeti”nin tarixi kökü olan “Kommunist” qəzeti həyata vəsiqə aldığı 1919-cu ildən başlayaraq, 1930-cu illərin repressiya çağını, 1940-cı illərin II Dünya müharibəsi illərini, 1950-ci illərin demokratik istiləşmə prosesini bir çox hallarda şərəflə keçmiş və nə qədər çətin olsa da, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında, milli mədəniyyətimizin, ədəbiyyatımızın, bir sıra hallarda milli azadlıq ideyasının təbliğində misilsiz rol oynamışdır. Təkcə bunu nəzərə almaq lazımdır ki, Əziz Şərif, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Əbdürrəhim bəy Haqverdiyev, Mir Cəlal kimi klassik yazıçılarımız bu qəzetin milli məzmun daşıyan yaradıcı şəxsiyyətləri olublar. Ümummilli lider Heydər Əliyevin bu qəzetin 75 illik yubileyi münasibətilə dediyi fikirlərini heç vaxt nəzərə almamaq olmaz: “Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur”.

Heydər Əliyevin bu sətirlərdəki hər sözü “Xalq qəzeti”nin tarixi xidmətinin qiymətli tezisləridir. Həqiqətən də, “Kommunist” qəzeti tipoloji statusuna görə rəzmi-ofisioz mətbuat nümunəsi olmaqla, xüsusilə Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik dövrünün başlanması ilə əsl həqiqəti heç vaxt gizlətmədi. O zamankı ali məktəblər sistemində tələbə qəbulu zamanı baş alıb gedən rüşvətxorluğun qarşısını almaq üçün H. Əliyevin “Literaturnaya qazeta”dan sonra bu qəzetdə dərc olunan “Qoy ədalət zəfər çalsın” genişmiqyaslı müsahibəsi ilə bu sahədə rüşvətxorluq hiss olunacaq dərəcədə aradan qaldırıldı. Qəzetin səhifələrində belə yazıları çox görürdük.

İllər keçdi və Azərbaycan özünün yeni müstəqillik dövrünə qədəm qoyduqdan sonra sovet ideologiyasından tam imtina çağında “Kommunist” qəzeti “Xalq qəzeti” adı ilə nəşr olunmağa başladı. “Xalq qəzeti” tamamilə yeni tipoloji xarakter aldı, Prezidentin İşlər İdarəsinin və redaksiya heyətinin qəzeti kimi fəaliyyətə başladı. Elə buradaca qeyd edək ki, 1970-1980-ci illərdə bu qəzetin Ağababa Rzayev, Rəşid Mahmudov, Nəriman Zeynalov, Hacı Həsənov, Ramiz Əhmədov, Tofiq Rüstəmov kimi redaktorları, Əli İldırımoğlu, Hacı Həsənov, Əhməd İsayev, Hidayət Nağıyev, Musa Əliyev, Telman Əliyev, Sərdar Əliyev, Piri Məmmədov və s. kimi öz peşəkarlığı və üslubu ilə sayılıb-seçilən əməkdaşlarının yaratdığı jurnalistika məktəbi qəzetin müasir kollektivi tərəfindən ustalıqla daha da təkmilləşdi. “Xalq qəzeti”nin yeni rəhbərliyi və onun yaradıcı kollektivi sübut etməkdədir ki, qəzet – print jurnalistikası heç də bəzilərinin düşündüyü kimi, asanlıqla sıradan çıxmayacaq. Hələ altı il bundan əvvəl “Vaşinqton post” qəzeti bir ildən sonra elektron varianta keçəcəyini planlaşdırmışdı. Lakin ilkin təcrübələr göstərdi ki, “Vaşinqton post”un oxucuları elektron varianta əhəmiyyət vermədilər və beləliklə, bu qəzet kağız formatda bu gün öz fəaliyyətini həmişəki uğurla davam etdirməkdədir.

Jurnalistikadakı nəzəri və praktik yaradıcılığı ilə ictimai rəydə və media mühitində xüsusi etimad qazanmış Əflatun Amaşovun baş redaktor təyin edilməsindən dərhal sonra “Xalq qəzeti” özünün tipoloji xarakterini genişləndirdi və xeyli dərəcədə yeni yaradıcılıq formatlarını işə saldı. “Xalq qəzeti”, ilk növbədə, həm peşəkarlıq baxımından, həm də texnoloji baxımdan özünə yeni yol xəritəsi seçdi. İlk növbədə, hadisələrə, fakta obyektiv yanaşma prosesi başladı. Jurnalistikanın obyektivlik, dəqiqlik, qərəzsizlik, vicdanlılıq, balanslılıq kimi yaradıcılıq prinsipləri “Xalq qəzeti” redaksiyasının aparıcı xətti oldu. Ən əsası da, belə bir məqam diqqətə alındı ki, indiyə qədər milli mediamızın “pənah gətirdiyi” Qərb jurnalistikasının saxta prinsipləri, iflasa uğramaqda olan “kanonları”ndan “Xalq qəzeti” imtina edərək birbaşa milli mətbuatımızın yaradıcılıq prinsiplərini media məktəbi səviyyəsində qəbul etməyi qərara aldı.

“Xalq qəzeti” özünün informasiya siyasətini təkmilləşdirdi. Ümummilli liderimiz Heydər Əliyevin vaxtilə jurnalistlərlə görüşündə dediyi “Bütün tənqidi düşüncəni heç də tamamilə müxalifyönlü qəzetlərin öhdəsinə buraxmaq olmaz, iqtidaryönlü



mediamız da tənqidə xüsusi diqqət yetirməlidir” sözləri “Xalq qəzeti”nin yeni informasiya siyasətinin diqqətində oldu. Qəzetin səhifələrində vaxtaşırı olaraq yer alan qida təhlükəsizliyi ilə bağlı özünü göstərən problemlərdən tutmuş Gözdən Əlillər Cəmiyyəti, telekanallarda efirə çıxarılan məzmunsuz və mənasız proqram formatlarının daxili sirlərini ifşa edən yazılarda araşdırılan problemlərin həm də həllini diqqət mərkəzində saxlamaqdadır.

“Xalq qəzeti” bütün yaradıcılıq istiqamətində dövlətçilik və milli maraqlar sistemini daimi olaraq ön planda saxlayır. Qəzetin tematika zənginliyi birbaşa bu iki amilin üzərində qurulur. Əlbəttə, hər bir normal mətbuat qurumu üçün vacib olan ictimai maraq prinsipi də “Xalq qəzeti”nin diqqət dairəsindədir. Lakin bu prinsipin özü də milli maraqlar sisteminə xidmət edir.

Qeyd etdiyimiz tematika zənginliyi həm də aktuallığı ilə diqqəti cəlb edir. Bu aktuallıq keyfiyyəti özünü Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin ifşası fonunda aydın göstərdi və bu gün də göstərməkdədir. Azərbaycanın 44 günlük Vətən müharibəsi dövründəki parlaq qələbəsi və bu qələbə yolunda Ali Baş Komandan İlham Əliyevin, müzəffər ordumuzun misli görünməmiş uğurları “Xalq qəzeti”nin analitik materiallarında xalq və hakimiyyətin birliyi fonunda təqdim olunmaqdadır. Qəzet özünün, bütövlükdə, informasiya siyasətində və xüsusilə Vətən müharibəsindəki qələbəmiz fonunda bu qələbənin elmi-nəzəri və praktik rəhbəri, Prezident İlham Əliyevin diplomatik bacarığını birmənalı olaraq ön planda təqdim edir. “Xalq qəzeti” peşəkar publisistikasında bu günün və sabahın tədqiqatçıları üçün Azərbaycan Prezidenti İlham Əliyevin zamana sığmayan diplomatik obrazını tarixə yazmış və yazmaqdadır.

Qarabağ mövzusuna bir də qayıtsaq, cəsarətlə deyə bilərik ki, bu gün “Xalq qəzeti” üçün Vətən Qarabağdan başlayır. Azərbaycan Prezidentinin başçılığı ilə işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinə dair yazılar qəzetin prioritet materiallarıdır. Qarabağ mövzusu qəzetdə sonsuz istiqamətlərdən işıqlandırılır. Bu istiqamət fonunda Prezidentin Qarabağda təşkil etdiyi beynəlxalq tədbirlər, bu tədbirlərdə dünya jurnalistlərinin erməni vandalizmini öz gözləri ilə görməsi və əməkdaşlıq etdikləri xarici mətbuatda işıqlandırması kimi qiymətlidir və bütün bunlar “Xalq qəzeti”nin prioritetləri sırasındadır.

“Xalq qəzeti”ndə şəhid mövzusu ön sıradadır. Həm də bu mövzu elə maraqlı detallarla təqdim olunur ki, Vətən uğrunda canını qurban vermiş oğullarımızın qəhrəmanlıq dünyası hər bir oxucuda Vətənə sevgi hisslərini yenidən oyadır və bu duyğular ciddi bir maarifçilik funksiyasını yerinə yetirir. Oxucu yaddaşının müqəddəs faktoruna çevrilən bu yazılar daha çox esse janrında olub, bütövlükdə, xalqın qan yaddaşına yazılmaqdadır.

Müasir Azərbaycanın dövlətçilik siyasəti birbaşa bu dövlətin arxitektoru Heydər Əliyevlə bağlıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Ümummilli liderimizin yüz illik yubileyini - 2023-cü ili rəsmi sərəncamla Heydər Əliyev ili elan etdi. Azərbaycan jurnalistikası 2023-cü ildə Heydər Əliyev ilini Ulu öndərə böyük sevgi ilə qeyd etdi. Amma bir faktı vurğulamaq lazımdır ki, “Xalq qəzeti” üçün ötən və gələn illərin hamısı Heydər Əliyev ilidir. Bu faktın təsdiqi üçün qeyd edək ki, “Heydər Əliyev ili”nin bitməsinə baxmayaraq “Xalq qəzeti” özünün, az qala, hər nömrəsində bu tarixi şəxsiyyətin xidmətləri ilə bağlı çeşidli yazılar dərc etməkdədir. Deməli, bu qəzet üçün Heydər Əliyev şəxsiyyətinin ömür yolu ədəbi bir mövzudur.

“Xalq qəzeti”nin tematika zənginliyində Azərbaycanın elmə dövlət səviyyəsində münasibəti də mühüm yer tutur. Bu mənada qəzetin elmə sıravi alimdən tutmuş akademik səviyyədə münasibətini əks etdirən silsilə yazılar xüsusi qeyd edilməlidir. Qəzet hər hansı bir azərbaycanlının beynəlxalq arenada özünü göstərən elmi uğurlarını, yaradıcılığını dərhal öz oxucusuna təqdim etməklə onda həm milli qürur hissini ucaldır, həm də onu elmə istiqamətləndirir. “Xalq qəzeti” bu sahədə ilklərə imza atan bir mətbuat orqanıdır. Təkcə Nobel Sülh mükafatçısı olan Bəxtiyar Siracovla və çoxumuzun tanımadığımız, amma beynəlxalq arenada şöhrət qazanmış azərbaycanlı alimlər haqqında yazılar və hətta redaksiyada onların görüşlərinin təşkili bu faktın təsdiqinə misal ola bilər.

“Xalq qəzeti” qeyd etdiyimiz və etmədiyimiz bu geniş tematikanı çox yüksək peşəkarlıqla fəaliyyət proqramına çevirir. Bu peşəkarlığın bir çox istiqamətləri var. Məsələn, qəzetin materiallarının aydın dili və üslubu, ifadə tərzində oxucunun bütün təbəqələrinin nəzərə alınması, mövzudan, mövzunun obyektindən asılı olaraq janrın seçilməsi, publisistikada ədəbi-bədii üsluba müraciətlə maraqlı məqamların yaradılması, insanı olduğu kimi təsvir etməyi bacarmaq və s. onlarca peşəkarlıq fəaliyyəti “Xalq qəzeti”nin populyarlığını, nüfuzunu artıran faktlardır. Biz bu məqamda qəzetdə özünü göstərən çox maraqlı və ilk baxışdan da oxucuların diqqətini cəlb edən və məqalələri oxumağa “vadar edən” sərlövhələri – yazı başlıqlarını xüsusi qeyd etmək istərdik.

Aydındır ki, sərlövhə - başlıq ifadə olunan mövzunun ən qısa tezisidir. Çox ciddi peşəkarlıq, hətta deyərdik ki, çox böyük sənətkarlıq tələb edir. Çünki sərlövhə oxucunu həmin materialı oxumağa çağıran əsas elementdir. Peşəkar jurnalist həm də sərlövhəni saxta çağırışdan uzaq tutur. “Xalq qəzeti”nin sərlövhələri həm oxucunu diqqətə çağırışı ilə, həm də peşəkarlığın yüksək göstəricisi kimi maraq doğurur. Belə sərlövhələrdən bir neçəsinə diqqət edək: “Ulu öndərin Naxçıvandan başlanan xilaskarlıq marafonu”, “Heydər Əliyev – dövlətçilik zirvəsi”, “Azərbaycan-Gürcüstan dostluğu”, “Qafqaz evinin möhkəm özülüdür”, “İrəvan “va-bank” gedir?”, “Soyqırımı yaddaşımız: dövlətsizliyin cəzası və bütöv Azərbaycan”, “Yalançı bayraq altında amansız terror”, “Köhnə qitə necə islamlaşır?”, “Makron dünyanı müharibəyə sürükləyir”, “Demokratiyanın tələbi, yoxsa Qərbin saxta silahı?”, “Dağların daş nağılı - Lahıc”, “Daha nağılları nənələr demir”, “Bir parça daş Vətəndir”, “Şəhid anasının poetik duyğuları”, “Naxçıvanda çalınan “Qərbi Azərbaycana qayıdış” zəngi”, “Kosmosun azərbaycanlı əfsanəsi”, “Azərbaycanın Əl-Cəzirədəki səsi” və s. kimi onlarca bu tipli sərlövhənin altında milli dəyərlərimizə, milli maraqlarımıza sonsuz jurnalist sevgisi dayanır.

“Xalq qəzeti”nin yeni dönəm fəaliyyətində onun poliqrafik mənzərəsi də diqqəti cəlb edir. Çoxsəhifəli formatda nəşr edilən qəzetin rəngli siması, hər səhifənin tematik sərlövhəsi, mətnlərin yığımı və yerləşdiyi sütunların kontentə uyğun tərtibi kimi məsələlər də oxucuya xidmət olaraq qiymətləndirilməlidir.

Sual oluna bilər: bəs bu qəzetin müasir media sistemində yerini möhkəmləndirən hansı faktordur? Birbaşa cavab: qəzetin yaradıcı kollektivi – redaksiya əməkdaşları. Əlbəttə, məlumdur ki, hər bir media qurumunun iki mühüm yaradıcı kollektivi var: birincisi, qəzetin müəllifləri – yəni oxucu, ziyalı kontingenti – redaksiyaya, qəzetə marağı olan ədəbi qüvvələr. Bu sırada biz Azərbaycanın Anar, Elçin kimi yazıçı-publisistləri, İsa Həbibbəyli, Kamal Abdulla, Nizaməddin Şəmsizadə və s. kimi onlarla filoloq-alimləri qeyd edə bilərik. Eləcə də Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış Həsən Həsənov, Abid Şərifov, Əhməd Əhmədzadə kimi dövlət xadimlərinin qəzetdə yer alması redaksiyanın cəmiyyətdə baş verən hadisələrə canlı münasibətinin təsdiqidir.

Redaksiyanın digər və əlbəttə, əsas yaradıcı qrupu qəzetin birbaşa əməkdaşlarıdır. “Xalq qəzeti” əməkdaşlarının böyük əksəriyyəti birbaşa jurnalistika ixtisasına sahib yazarlardır. Qəzetin Baş redaktoru Əflatun Amaşov Moskva Dövlət Universitetində jurnalistika ixtisasına yiyələnmişdir. Ə. Amaşov bu qəzetə redaktor təyin olunanadək AZƏRTAC kimi mötəbər bir təşkilatda çalışmış, daha sonra uzun illər "RUH" Jurnalistləri Müdafiə Komitəsi kimi bir qeyri-hökumət təşkilatına, Jurnalistləri Müdafiə kimi bir quruma, “Mətbuat Şurası”na rəhbərlik etmişdir. Onun rəhbərlik səriştəsinə ölkə jurnalistləri yaxşı bələddirlər. Son vaxtlar bu sənətkar jurnalistin biz həm də çox maraqlı yazıçı qələminin şahidi olduq. Onun “Qanıq, Hasan, bir də Qaragöz” povestinin “Ulduz” jurnalında dərcindən dərhal sonra ədəbi tənqid və geniş ictimaiyyət bu əsəri “ədəbi hadisə” kimi qiymətləndirdi.

Ə. Amaşovu bu sətirlərin müəllifləri də yaxşı tanıyırlar. Onun rəhbərlik etdiyi təşkilatlarda kollektivə münasibətinin özü çox maraqlı mühit yaradır.

“Xalq qəzeti”nin kollektivi müntəzəm olaraq, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə yaradıcılıq əlaqəsi saxlayır. Redaksiya rəhbərliyi və Bakı Dövlət Universitetinin birgə qərarı ilə Jurnalistika fakültəsində “Xalq qəzeti” auditoriyası yaradılmışdır. Yeni dərs ilinin lap ilk günlərində açılışını gözlədiyimiz bu auditoriyada jurnalistlərlə dəyirmi masa, ustad media nümayəndələri ilə tələbələrin görüşləri keçiriləcək. Bütün bu faktlar redaksiya kollektivinin yeni yaradıcılıq göstəriciləridir və qəzetin hər nömrəsinin buraxılışında bu yeniliklər oxucuya hörmət, qəzetin nüfuzunu qaldırmaq üçün atılan addımlardır. Bu çətin, amma şərəfli yaradıcılıq yolunda “Xalq qəzeti”nə - xalqımızın qəzetinə uğurlar arzusu ilə...

***Vüq ƏLİYEV,***
***BDU jurnalistika fakültəsinin dekanı, professor;***

***Cahangir MƏMMƏDLİ,***
***BDU milli mətbuat tarixi kafedrasının müdiri, professor***

Tariximiz və milli kimliyimiz

# Milli albanşünaslığın təşəkkülü, uğurları və problemləri

**Azərbaycan tarixinin təməl mövzularından biri albanşünaslıqdır. Milli kimliyimizin öyrənilməsində, təsdiqində və bu sahədə uydurmaların cavablandırılmasında albanşünaslıq elminin qarşısında duran vəzifə son illərdə strateji önəmi, fundamental səciyyəsi ilə ikiqat aktuallaşmışdır.**

Tədqiqatçılar Cənubi Qafqazın ən qədim dövlətlərindən biri olan Albaniyanın min ildən artıq tarixini 2 dövrə ayırırlar. Birinci qədim mərhələ ellinizmdən antik dövrün sonlarına qədərki (e.ə. IV əsr – b.e. III əsrin əvvəli), ikinci erkən orta əsrlər dövrü isə Sasanilər dövlətinin yaranmasından Qafqazda Alban dövlətinin müstəqilliyinə son qoymuş ərəb işğalına qədərki əsrləri (III əsr – VIII əsrin əvvəlləri) əhatə edir.

Albaniyanın tarixinin ikinci dövrü çoxsaylı Sasani, Bizans, Suriya, ərəb, erməni və gürcü mənbələrində yetərincə yaxşı işıqlandırılsa da, erkən qədim mərhələnin geniş mənbəşünaslıq bazası mövcud deyil. Bu səbəbdən Albaniyanın tarixi keçmişinin öyrənilməsində arxeoloji tədqiqatlar mühüm əhəmiyyət kəsb etmişdir.

Albanlar Cənubi Qafqazın aparıcı və böyük etnoslarından biri olaraq yazılı mənbələrdə ilk dəfə Qavqamel döyüşü (e.ə. 331-ci il) ilə əlaqədar xatırlanırlar. Bu döyüşü təsvir edən Roma tarixçisi Flavi Arrian alban döyüşçülərinin fars şahı III Daranın qoşununun sıralarında yer aldığını qeyd etmişdir. Bu vaxtdan etibarən albanlara və onların e.ə. IV əsrin sonu–III əsrin əvvəllərində Böyük Qafqaz dağlarından Araz çayına qədər geniş ərazidə yaratdıqları dövlətə dair səthi, ziddiyyətli, bəzən isə diametral zidd olan məlumatlara bir sıra yunan və Roma müəlliflərinin – Strabonun “Coğrafiya”, Plutarxın “Müqayisəli tərcümeyi-hallar”, Dion Kassinin “Roma tarixi” və s. əsərlərində rast gəlinir.





Bütün XIX əsr boyunca Azərbaycanda rus və əcnəbi arxeoloqlar, elmi qazıntılar üzrə metodikası olmayan yerli məmurlar ara-sıra arxeoloji tədqiqatlar aparmışlar. Tunc dövrünə aid qəbir abidələrində aşkarlanan materiallar Azərbaycandan kənara aparılırdı. 1834-cü ildə isveçrəli səyyah Frederik Dyubua de Monpere indiki Göygöl rayonu ərazisindəki qədim məzarlıqda qazıntılar aparmış, aşkarlanan artefaktları isə Fransaya aparmışdır. Fransalı səyyah Adolf Bernye 1862-ci ildə Muğan düzündə bir sıra qədim abidələri tədqiq etmiş, o da materialları Fransaya daşımışdır.

XIX əsrin sonunda Gədəbəy rayonunda mis istehsalı ilə məşğul olan “Simens və K” alman şirkətinin əməkdaşı V.Belk son tunc-erkən dəmir dövrünə (e.ə. II minilliyin sonu – I minilliyin əvvəli) aid 300-dən artıq “daş qutu” tipli qəbirləri açmışdır. Aşkarlanmış və Almaniyaya göndərilmiş bütün arxeoloji və antropoloji materiallar bu günə qədər orada saxlanılır. Eyni dövrdə fransız arxeoloqu Jak de Morqan Talış dağları ərazisində son tunc və erkən dəmir dövrünə aid 230 qəbri qazmışdır. Bütün arxeoloji materiallar Fransaya göndərilmiş və Sen-Jermen muzeyində saxlanılmaqdadır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Rusiya İmperator Arxeologiya Komitəsinin tapşırığına əsasən, E.Resler, Q.Rozendorf, A.İvanovskiy, V.A.Skinder, İ.Qummel, Y.A.Lalayan Qarabağda Gəncəçay vadisində və Azərbaycanın digər rayonlarında çox sayda qədim məzarlıqlarda qazıntılar aparmışlar. Bu qazıntılar zamanı aşkarlanan materiallar Sankt-Peterburqa, Moskvaya aparılmışdır. Elmi hesabatlar isə “İmperator Arxeologiya Komitəsinin Hesabatlarında”, “Arxeologiya Komitəsinin Xəbərlər toplusu”nda və “Qafqaz Arxeologiyası üzrə Materiallarda” dərc olunmuşdur.

1835-ci ildə Fridrix Kruzenin məqaləsində İberiyanın, Albaniyanın, Kolxidanın və Ermənistanın qədim tarixinin öyrənilməsinin, xüsusən Xəzər dənizi və Qara dəniz arasındakı qədim ticarət yolunun bərpa olunması baxımından əhəmiyyəti qeyd olunmuşdur. İmperator Arxeologiya Komitəsi qədim tarixi abidələri aşkarlamaq məqsədilə Aleksandr Yanovskini Cənubi Qafqaza göndərmiş, o, Albaniyanın paytaxtı Qəbələ ərazisində kəşfiyyat qazıntıları aparmışdır. Tədqiqatın nəticəsi olaraq 1846-cı ildə “Qədim Qafqaz Albaniyası haqqında” ilk elmi məqalə dərc olunmuş, amma Albaniyanın cənub sərhədi – Kür çayı qeyd edilmişdir.

XIX əsr – XX əsrin birinci yarısında Albaniyanın tarixi ilə əlaqədar bir sıra məsələlərə rus alimləri İ.Şopen, B.A.Dorn, V.V.Bartold, V.F.Minorski, Y.A.Krımski, S.V.Yuşkovun, avropalı tədqiqatçılar H.Hipert, V.Tomaşek, İ.Markvart və Q.Hyubşmanın və s. əsərlərində rast gəlinir. Albaniya mövzusuna toxunan ilk azərbaycanlı tədqiqatçı A.A.Bakıxanov olmuşdur. O “Gülüstani-İrəm” əsərində Azərbaycan tarixini qədim dövrlərdən Gülüstan müqaviləsinə qədər (1813-cü il) araşdırmağa çalışıb.

Azərbaycanda arxeologiya elmi XX əsrin birinci yarısında, albanşünaslıq elmi istiqaməti isə XX əsrin ikinci yarısında formalaşmışdır. 1920-ci ildə Azərbaycan Dövlət Tarix Muzeyi, 1923-cü ildə isə Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılmışdır. Bu dövrün arxeoloji materialları əsasında Qafqaz Albaniyasının antik dövr tarixinə dair ilk əsərlər nəşr olunmuşdur. Milli arxeoloq kadrlarının formalaşması prosesi başlanmışdır.

1926-cı ildə Azərbaycan Dövlət Tarix Muzeyinin ekspedisiyası D.M.Şərifovun rəhbərliyi altında Yaloylutəpə adlı ərazidə antik dövrə aid torpaq qəbirləri tədqiq etmişdir. XX əsrin 20–30-cu illərində antik dövr alban tarixinə aid qəbirlərin ən çox yayılmış növü – küp qəbirlərin tədqiqi üzrə irihəcmli çöl işləri aparılmışdır. Akademik İ.İ.Meşaninov və Ə.K.Ələkbərovun rəhbərlik etdiyi ekspedisiyalar Mil düzündə, Şəki, Göyçay və digər rayonlarda onlarla küp qəbri tədqiq etmişdir.

Mingəçevir ərazisində arxeoloji tədqiqatlar aparmaq üçün 1934–1938-ci və 1946–1953-cü illərdə 2 ekspedisiya təşkil olunmuşdur. Alban dövrünə aid olan tapıntılar indi Azərbaycan Milli Tarix Muzeyində saxlanılır. 1959-cu ildə Qəbələ arxeoloji ekspedisiyası yaradılmış və bu günədək öz tədqiqatlarını davam etdirir. 1959–1971-ci illərdə ekspedisiyaya S.M.Qazıyev, sonrakı illərdə isə Q.M.Əhmədov və İ.A.Babayev rəhbərlik etmişlər. Müxtəlif illərdə ekspedisiyasının tərkibində R.B.Göyüşov, F.L.Osmanov, O.İsmizadə, T.Qolubkina və A.Qarəhmədova və b. fəaliyyət göstərmişlər.

1965-ci ildə Ziya Bünyadovun “Azərbaycan VII–IX əsrlərdə” monumental əsəri albanşünaslığın əsasını qoymuşdur. XX əsrin 60-70-ci illərində Moskva və Sankt-Peterburqun aparıcı elmi mərkəzlərində hazırlıq keçmiş tarixçi və arxeoloqların yetişməsi bir çox antik abidələr, ilk növbədə, Albaniyanın şəhərləri üzrə irihəcmli tədqiqatlara başlamağa imkan vermişdir. Beləliklə, tarix, arxeologiya, memarlıq, sənətşünaslıq, antropologiya və s. sahələrdə tədqiqatları özündə ehtiva edən çoxsahəli “albanşünaslıq” formalaşmışdır.

Bu sahənin alimləri sırasında Z.Yampolski, F.Məmmədova, Q.Voroşil, F.Əsədov, R.Məlikov, D.Axundov, G.Məmmədova, İ.Babayev, Ə.Rəcəbli, Y.Nəsibov, V.Piriyev, T.Məmmədov, K.Əliyev, C.Xəlilov, M.Xəlilov, N.Rzayev, R.Vahidov, A.Mustafayev və b. idi. Onların hamısı öz əsərləri ilə Azərbaycanın tarixi torpaqları ilə bağlı erməni konsepsiyalarının qeyri-qanuni və elmə zidd olduğunu sübut etmişlər. Onlar Qafqaz Albaniyasının tarixi və mədəniyyəti üzrə ümumiləşdirici əsərlər yazmışlar. Bu əsərlərdə tarixi problemlərin geniş spektrinin əsaslandırılması üçün arxeoloji materiallardan istifadə olunmuşdur.

Qafqaz Albaniyası tarixinin müxtəlif sahələrinə aid C.Xəlilovun “Qafqaz Albaniyasının maddi mədəniyyəti”, İ.Babayevin “Qafqaz Albaniyasının şəhərləri”, Fəridə Məmmədovanın “Musa Kalankatlının “Alban tarixi” əsəri Qafqaz Albaniyasının ictimai quruluşu üzrə bir mənbə kimi”, “Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası”, “Qafqaz Albaniyası və albanlar”, K.Əliyevin “Antik Qafqaz Albaniyası”, Q.Qoşqarlının “Azərbaycan ərazisində antik dövrə aid qəbir abidələrinin tipologiyası”, Q.Cəbiyevin “Girdiman: tarixi və tarixi coğrafiyası” adlı əsərlərini, Albaniyanın numizmatikası barədə Əli Rəcəblinin, memarlıq tarixi haqqında Davud Axundovun, Gülçöhrə Məmmədovanın, Səbinə Hacıyevanın və s. alimlərin əsərləri milli albanşünaslığı zənginləşdirmişdir.

2000–2003-cü illərdə Fəridə Məmmədovanın rəhbərliyi altında Qafqaz Albaniyasının Tədqiqat Mərkəzi yaradılmış və Bakıda 2 beynəlxalq konfrans və 1 elmi seminar təşkil edilmişdir. Elmi məclislərin materialları 2 topluda nəşr edilmişdir. Həmin illərdə ümummilli lider Heydər Əliyev birgə Azərbaycan–Norveç “Kiş” layihəsinin həyata keçirilməsinə dəstək vermişdir. Bu layihədə Gülçöhrə Məmmədovanın (S.Hacıyeva və başqaları) rəhbərliyi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarları, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları (V.Kərimov, A.Qarəhmədova və başqaları), Norveç Krallığı və Norveç Humanitar Yardım Cəmiyyətinin dəstəyi ilə Norveç alimləri B.Sturfiel, S.Sturfiel, Tur Heyerdal iştirak etmişdir.




2009-cu ildən isə Seul–Bakı Mədəniyyət Mübadiləsi Assosiasiyasının dəstəyi ilə Azərbaycan–Koreya birgə ekspedisiya qrupu Səlbir yaşayış yerində (Albaniyanın paytaxtı Qəbələ şəhərinin ərazilərindən birində) qazıntı işləri aparmışdır. Arxeoloji qazıntılarda Azərbaycan Milli Elmlər Akademiyasının arxeoloqları və koreyalı arxeoloqlar iştirak etmişlər. 2019-cu ilədək, ümumilikdə, 10 mövsüm çöl-tədqiqat işi aparılmışdır. COVID-19 səbəbindən növbəti 3 ildə heç bir qazıntı işi aparılmamış 2023-cü ildən davam etdirilmişdir. Nəticədə, bir sıra maraqlı və dəyərli məqalələr, “Qafqaz Albaniyası etno-mədəni irsi” toplularının nəşr olunmuşdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin rəhbərliyi ilə “Qafqaz Albaniyasını öyrənirik” layihəsi həyata keçirilmişdir. Tarix elmləri doktoru Həcər Verdiyevanın rəhbərliyi altında alimlərin və tələbələrin iştirakı ilə müxtəlif görüşlər, seminarlar keçirilmiş, Salesian Pontifik Universiteti ilə birlikdə 2015-ci ildə Romada “Azərbaycan multikulturalizmi və Qafqaz Albaniyası (udilər)” mövzusunda beynəlxalq konfrans təşkil edilmişdir.

2019-cu ildə Rəvan Həsənov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru təyin edildikdən sonra bu qurumun təşviqi ilə albanşünaslıq üzrə elmi tədqiqatlar genişlənmişdir. Beynəlxalq konfranslar, seminarlar keçirilmiş, 2019-cu ildən 2023-cü ilə qədər 3 dildə “Qafqaz Albaniyası etno-mədəni irsi” məqalələr toplusunun 4 nömrəsi nəşr olunmuşdur. Elmi redaktorları AMEA-nın müxbir üzvü Fəridə Məmmədova, tarix üzrə fəlsəfə doktoru Ülviyyə Hacıyeva, professorlar Kərim Şükürov və Nəcəf Müseyibli olan toplunun redaksiya heyətinə Gürcüstan, Rusiya, İngiltərə, Koreya Respublikası, Litva alimləri daxildir. Bu nəşr ölkəmizdə albanşünaslığın ayrı-ayrı istiqamətlərində tədqiqat aparan xarici və Azərbaycan alimlərinin birgə nəşr edildiyi yeganə elmi topludur.

2023–2024-cü illərdə Avropada, Ermənistanda, Türkiyədə də Albaniyanın ayrı-ayrı problemlərinə aid monoqrafiyalar nəşr olunmuşdur. Təəssüf ki, bu kitablarda və toplularda alban etno-mədəni irsinin, “Kür–Araz ərazisinin erməni tarixinə aid olması” barədə saxta iddialar irəli sürülür. Bu uydurmalara “Qafqaz Albaniyası etno-mədəni irsi” toplusunda layiqli cavab verilmişdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi 2021-ci ildə F.Məmmədovanın “Qafqaz Albaniyası və albanlar” monoqrafiyasını ingilis dilində nəşr etdirmişdir. 2023-cü ildən AMEA Tarix və Etnologiya İnstitutunun baş direktoru, professor Kərim Şükürovun “Azərbaycan albanşünaslığının (Qafqaz) tarixinə dair” adlı monoqrafiyası dərc edilmiş və bir sıra qiymətli kitablar nəşr olunmuşdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu birgə onlayn qafqazşünaslıq kursu təşkil etmişdir. Bu il aprelin 19-20-də AMEA Tarix və Etnologiya İnstitutu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası və Alban-Udi Xristian Dini İcmasının təşkil etdiyi “Qafqaz Albaniyası: etnoarxeologiya, yazılı mənbələr və tarixi abidələr” XI Beynəlxalq Konfransının materialları “Qafqaz Albaniyasının etno-mədəni irsi” məqalələr toplusunun V sayında nəşr olunacaq.

Albanşünaslığın son illərdəki inkişafı onun növbəti illərdə yeni səviyyəyə qaldırılmasını zəruri edir. Lakin bu sahə ilə məşğul olan alimlərin azlığı narahatlıq doğurur. Yeni nəsil arxeoloqlara, memarlara, epiqraflara, numizmatlara, qədim dilləri bilən tarixçilərə və dilçilərə böyük ehtiyac var. Bu istiqamətdə kadr hazırlığına diqqət artırılmalıdır.

**Ülviyyə HACIYEVA,**
**AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru**

# Görkəmli sənətkarın arxivi zənginləşir

**Azərbaycan Dövlət Film Fonduna şəxsi arxivdən Xalq artisti, görkəmli teatr və kino xadimi Adil İsgəndərovun nadir fotoları daxil olub. Fotoların ikisində “Azərbaycanfilm” kinostudiyasına yenicə direktor təyin edilən görkəmli aktyorun (1966–1974-cü ildə kinostudiyaya rəhbərlik edib) “İstintaq davam edir” bədii filminin çəkilişlərini izləməsi əks olunub.**





Bu barədə XQ-yə Dövlət Film Fondunun direktor müavini Rəşad Qasımov məlumat verərək qeyd edib:

–Ssenari müəllifləri Cəmşid Əmirov, Mixail Maklyarski, quruluşçu rejissoru Əlisəttar Atakişiyev, quruluşçu operatoru Əlihüseyn Hüseynov olan filmdə sovet təhlükəsizlik orqanları tərəfindən xarici kəşfiyyatın apardığı əməliyyatın açılmasından, Azərbaycan çekistlərinin və milisinin fəaliyyətindən bəhs olunur. Fotolarda aktrisalar Larisa Xələfova (Dilarə Bayramova) və Lyudmila Şlyaxturun (Tatyana Ostapenko) iştirakı ilə dəniz sahilində epizodun çəkilişini görürük.

Bundan əlavə, Dövlət Film Fondunun saytı və sosial media hesabları vasitəsilə Adil İsgəndərovun “Qanun naminə” filmində Kamilov obrazını canlandırarkən çəkilmiş kadrarxası görüntülər də yayımlanıb. Xalq yazıçısı Süleyman Rəhimovun “Mehman” povesti əsasında çəkilən (ssenari müəllifi və quruluşçu rejissor Muxtar Dadaşov, quruluşçu operator Əlihüseyn Hüseynov) filmdə görkəmli sənətkar əsas rollardan birini oynayıb. Fotoşəkillər kinorejissor Muxtar Dadaşovun Film Fondunda qorunan şəxsi arxiv fonduna daxildir.

Qeyd edək ki, Adil İsgəndərovun “Azərbaycanfilm”ə rəhbərlik etdiyi dövrdə milli kinomuzun bir sıra dəyərli ekran əsərləri ərsəyə gəlib. O, bu müddətdə çəkilən dörd bədii filmdə yaddaqalan rollar oynayıb.

**C.BALABƏY**
**XQ**

# Rusiyanın şöhrətli teatrı Bakıya gələcək

**Sankt-Peterburqun Aleksandrinski Teatrının yaradıcı heyəti Bakıya qastrola gələcək. Rusiyanın qocaman sənət ocağı səhnələşdirdiyi Qoqolun məşhur “Evlənmə” pyesini Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında azərbaycanlı tamaşaçılara nümayiş etdirəcək.**



Bu barədə XQ-yə məlumat verən Milli Dram Teatrının mətbuat katibi Cavid Zeynallı bildirdi:

– Milli Dram Teatrı Aleksandrinski Teatrı ilə bu il əməkdaşlıq memorandumu imzalayıb. Bu layihə hər iki ölkənin milli teatrlarının birgə layihəsidir. Rusiya teatrının səfəri sentyabrın 19-20-nə nəzərdə tutulur. Təqdim olunacaq səhnə əsərinə Rusiyanın görkəmli rejissoru, Xalq artisti Valeri Fokinin quruluşunda baxılacaq. Başlıca məqsədimiz dünyanın aparıcı teatrları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrimizi inkişaf etdirmək və təcrübə mübadiləsi aparmaqdır.

Sözügedən qastrol Azərbaycan və Rusiyanın mədəniyyət nazirliklərinin birgə dəstəyi ilə reallaşacaq.

**Ceyhun ALIŞLI**
**XQ**

Gəlimli-gedimli dünya

# O, Nizami yurdunun şairi idi...

**Ey ağlıma gəlməyən,**
**könlümə xoş gəlmisən,**
**Allah bəndəsi, salam,**
**gör kimə tuş gəlmisən.**

**İnqilab İSAQ**

**Elə bu çağlar idi. Bakı qaynar günlərini yaşayırdı. İnsanlar gecə yarıyadək parklardan evə yığışmırdılar. Sakit yay axşamları daha bürkülü olurdu. Belə günlərdə gecədən xeyli keçənədək Akademiya bağındakı böyük fəvvarənin (Hacıbala müəllimin mer işləyən vaxtları idi və fəvvarəni də o, inşa etdirmişdi. Hətta Milli Elmlər Akademiyasının Cavid prospektinə baxan daş hasarlarını da sökdürüb, xeyli abadlıq işləri apartdırmışdı...) ətrafında oturur, o ərazidə gəzişirdim.**



Mənim illərlə qazandığım vərdişim vardı – həmişə işə tez gedərdim. O gün də elə oldu. Saat yeddi olmamış çayımı içib, evdən çıxdım. Əvvəlcə, Akademiya bağını seyr elədim, orada hər səhər cüt-cüt, dəstə-dəstə binanın başına dolanan dostlarla salamlaşdım. Sonra fəvvarənin yaxınlığındakı uzun oturacaqların birində əyləşdim. Orada bir soydaşımız da oturmuşdu, mürgüləyirdi. Yol çantasını da bərk-bərk tutmuşdu. Görən fikirləşərdi ki, yəqin çantada çox qiymətli nəsə var.

Az sonra qonşum gözlərini açıb məndən üzr istədi və əlavə etdi ki, gecə yol gəlib, yuxusuzdur. Arada ordan-burdan söhbət elədik. Bir azdan mən işə tələsdiyimi söyləyib, həmsöhbətimdən ayrıldım...

Nahar fasiləsi bitmişdi. İş yoldaşlarımdan kimsə dedi ki, sizi soruşan var. Deyir ki, Gəncədən gəlmişəm, "Tumurcuq"un redaktoru ilə görüşmək istəyir. Dedim gəlsin, gözləyirəm. Qapıdan girən adam səhər Akademiya bağında tanış olduğum soydaşımız idi. Hər ikimiz bu qəribə tanışlığa güldük. Çay içə-içə yenidən tanış olduq – müəllim-şair İnqilab İsaq idi.

Səhər mürgüləyəndə bərk-bərk tutduğu çantasını açıb kitabını mənə verdi. Kitabda olan şeirlərin hamısı uşaqlar üçün yazılmışdı. Əlyazma şeirlərini də təqdim elədi. Ayrılanda ərklə dedi ki, Gəncəyə yolum düşsə, mütləq onu axtarım, yaxşı bağı var, orada oturub çay içərik...

Növbəti sayda İnqilab müəllimin şeirlərini məktəbli oxuculara təqdim etdik.

Bir il keçmiş olardı. Bir gün Respublika Uşaq Kitabxanasının direktoru Şəhla xanım zəng elədi. Dedi ki, İnqilab müəllimin yubileyidir, uşaqlarla görüşünü keçiririk, sizin də iştirak etməyinizi istəyirəm. Getdim. Hətta çıxış da elədim. Görüşdən sonra İnqilab müəllim bildirdi ki, bilməzdim, mənim yazdıqlarımın çoxunu oxuyursan. O, bu dəfə "İndi elə təkəm ki..." şeirlər kitabını mənə bağışladı.

İnqilab İsaq gözəl şair idi. Bir-birindən fərqli 14 kitabı çıxıb. "Deməyə sözüm var", "Ümidə borclu dünya", "Aləm cənnətə dönsə", "Canım sənə desin", uşaqlar üçün "Aydan axan bulaq", "Bir çəmənin çiçəkləri", "Obaları gəzə-gəzə", "Nərgizin nərgizləri", "İndi elə təkəm ki", "Gizli buluşmalar" (İstanbulda nəşr edilib), "Sözün nəbzi" (gürcü dilində) və digər kitabları çap olunub. Prezident təqaüdünə, Beynəlxalq "Rəsul Rza" mükafatına layiq görülüb. Həm ictimai mövzuda olan, həm də sevgi şeirləri ürəyəyatan, düşündürücüdür. Bu şeirlər İnqilab müəllimin təbiətinə xas - səmimiyyətlə yoğrulub. Şeirlərinin birində yazdığı kimi, o, su kimi, bulud kimi adam idi və taleyin ağrılarını çox yaşamışdı, onları misra-misra düzmüşdü. Onun poetik ovqatı daha çox narahat dünyanın dərdlərindən, insanlığın sevincindən, kədərindən şirə çəkirdi:

**Bu gedənin, gələnin**
**Yanında otur bir az.**
**Böyüsün bu dünyanın**
**Qaranlığa işığı,**
**Çiçəyi, otu bir az...**

Filologiya elmləri doktoru Nizaməddin Şəmsizadə şair İnqilab İsaqın bir sıra şeirlərini gələcəyə atılan xəyal toxumu kimi dəyərləndirir: "Onun şeirləri diridir, canlıdır. İnsanı xəyallar aləminə aparır. Bu əsl şair fəzilətidir. "Xəyal gerçəkliyə atılan toxumdur"- deyir böyük türk oğlu R.T. Ərdoğan. İnqilabın şeirləri tarixə səpilmiş xəyal toxumlarına bənzəyir, onlar gələcəkdə cücərib gülşənə çevriləcək".

İnqilab müəllimlə son illər üzbəz görüşə bilməsək də, tez-tez zəngləşirdik. Çünki ürək adamı idi. Hərdən deyirdi ki, sən gəlmədin, ancaq bir gün görəcəksən ki, qapını döyən mənəm. Mən bu ünsiyyətdən məmnun idim və onun gəlişini gözləyirdim.

Bu il mayın ortaları idi. İnqilab müəllimin ziyalı dostları yazmışdılar ki, şair səhhətində yaranan problemlə bağlı Göygöl Mərkəzi Xəstəxanasında yatır...

Mayın 18-də isə eşitdik ki…

Dəyərli insana Allahdan rəhmət diləyirik!

***Səməd MƏLİKZADƏ***

Beynəlxalq həyat

# Çin niyə narahatdır?

**ABŞ Prezidenti Co Bayden mart ayında yenidən işlənmiş nüvə strategiyasını təsdiqləyib. "The New York Times" (NYT) qəzeti ictimaiyyətə açıqlanmayan sənəd barədə yazır ki, bu sənəd Çinin nüvə arsenalının sürətlə genişlənməsi fonunda qəbul edilib. Strategiya "Nüvə Silahlarının İstifadəsinə dair Bələdçi" adlanır və onun məqsədi ABŞ-ni "Çin, Rusiya və Şimali Koreyanın mümkün koordinasiya edilmiş nüvə çağırışlarına" hazırlamaqdır. Amerika hərbi departamenti əmindir ki, yaxın onillikdə Çin öz ehtiyatı və nüvə silahlarının müxtəlifliyi baxımından ABŞ və Rusiya ilə rəqabət apara biləcək. Sənəd artıq Çində narahatlıqla qarşılanıb.**



NYT yazır ki, strategiya hər dörd ildən bir yenilənir. Lakin sənəd o dərəcədə məxfidir ki, elektron formada mövcud deyil və az sayda çap nüsxəsi yalnız bir sıra milli təhlükəsizlik rəsmilərinə və Pentaqonun komandirlərinə təqdim olunub. Bununla belə, iki məmura bu dəyişiklik barədə ictimaiyyəti məlumatlandırmağa icazə verilib. Onların sözlərinə görə, Prezident Co Bayden vəzifəsindən ayrılmadan əvvəl Konqresə sənədlə bağlı açıq bildiriş göndərəcək.

Xatırladaq ki, iyul ayından etibarən ABŞ nüvə silahlarının sayı barədə məlumatları gizli saxlayır. 2023-cü ilin sentyabr ayına olan məlumata görə, ölkədə 3748 ədəd nüvə silahı var idi. Stokholm Sülh Araşdırmaları İnstitutu (SIPRI) bildirir ki, keçən il doqquz nüvə dövləti (Rusiya, ABŞ, Çin, Fransa, İngiltərə, Hindistan, Pakistan, İsrail və Şimali Koreya) arsenallarını modernləşdirməyə davam ediblər. SIPRI, həmçinin qeyd edir ki, operativ yerləşdirilmiş nüvə silahlarının sayı da artıb.

ABŞ-nin yeni nüvə strategiyası Çində narahatlıq doğurub. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ninq bildirib ki, Birləşmiş Ştatlar dünyada nüvə təhlükəsi ilə bağlı strateji risklərin ən böyük yaradıcısıdır. Mao Ninq iddia edir ki, Çinin nüvə arsenalı ABŞ-dəkindən azdır və o, nüvə silahının ilk istifadə edilməməsi siyasətini davam etdirir. Onun fikrincə, son illərdə ABŞ nüvə tərksilahı üzrə öhdəliklərindən yayınmaq üçün bəhanə kimi "Çin nüvə təhlükəsi ehtimalını" dilə gətirir. Çin Xarici İşlər Nazirliyinin nümayəndəsi brifinqdə bildirib ki, "Çin müvafiq hesabatlardan ciddi narahatdır".

Xatırladaq ki, ötən ay Çin beş rəsmi nüvə dövlətini nüvə silahının qarşılıqlı olaraq ilk istifadə edilməməsinə dair danışıqlar aparmağa və müqavilə bağlamağa və ya müvafiq siyasi öhdəliklər götürməyə çağırıb. Moskva və Vaşinqton Çinin təşəbbüsünü öyrənəcəklərinə söz veriblər, lakin siyasi müşahidəçilər indiki şəraitdə onun həyata keçirilməsi şanslarının zəif olduğunu vurğulayırlar.

***SE LAY***
***XQ***

Maraq dünyamız

# Bir var ağac ev, bir də var ağacdakı ev

**Bu günlərdə türkiyəli həmkarlarımızın işləyib hazırladığı www.seturday.com saytının "Naturalli" bölümündə adı göstərilməyən bir müəllifin "Ağacın dallarında uyanmaya ne dersiniz?" ("Ağac budaqlarında yuxudan oyanmaqla aranız necədir?") adlı yazısını oxudum.**



Müəllif yazır ki, çoxumuz uşaqlıq illərində hansısa filmdə ağacda yatmış adamları görəndə həmin xəyalla yaşayırdıq ki, kaş mənim də ağacda evim olaydı. Zaman sürətlə dəyişdi və artıq təkcə uşaqlar deyil, böyüklər də ağac budaqlarında tikilmiş evlərdə yaşamağı arzulayır və buna nail olurlar.

Sonra rus saytlarına da baxdım. Sən demə, ruslar türklərdən, avropalılar isə ruslardan əvvəl bu "yeni yaşayış məskənlərini" yaradıblarmış. Xatırladım ki, ağac ev layihələrini hamıdan tez Sibirdə və Rusiyanın digər soyuq ərazilərində yaşayanlar icad eləmişdilər. Ağacdakı ev məsələsi isə yenidir.

Sayt yazır ki, mükəmməl şəkildə hazırlanan ağacda tikilmiş evlərdə yatmaq, gecələmək bir yana, onları görmək belə insanın daxilinə sakitlik, rahatlıq gətirir. Belə evlərə Türkiyənin Qara dəniz bölgəsində daha çox rast gəlmək mümkündür. Ancaq budaqlar arasında tikilən evlər təkcə Türkiyədə deyil, dünyanın bir çox ölkələrində turistlər tərəfindən heyranlıqla qarşılanır. Bu gün dünyanın bütün ölkələrini öz "əsarəti altına almış" daş-beton evlərdən fərqli olaraq, ağacda tikilmiş evlər təbiətin bir parçası kimi dəyərlidir.

Xatırlatdır ki, Danimarkadan Kanadaya, Amerikadan Yaponiyaya qədər olan coğrafiyada, üstəlik, Belçika, İsveç, Cənubi Afrika və Yeni Zelandiyada rast gəlinən belə evlərin hər biri hansısa mütəxəssisin fantaziyasına uyğun şəkildə gözəlləşdirilib. Ümumilikdə isə, təbii ki, kimsə bu ideyanın ilk müəllifi olub və həmin adam yəqin ki, indi kimdənsə patent istəyə bilmir. Çünki onun ideyası təbiətin toxunulmazlığını pozub.

Yapon mütəxəssislərin fikrincə, quşların yuva qurub nəsil artırmalı olduğu budaqlarda insanların yaşaması üçün ev inşa edilməsi təbiətin Ana Yasasına müdaxilə deməkdir.

Bu ideyanı müdafiə edənlər deyirlər ki, ağacda ev tikmək düşüncəsi, ilk növbədə, qorxudan yaranıb. Yəni meşədə gecələməli olan insanlar vəhşi heyvanlardan və sürünənlərdən qorunmaq üçün bu üsuldan istifadə ediblər. Onların bu arqumentinə qarşı çıxanlar isə bildirirlər ki, pişikkimilər və sürünənlər ən uca ağacın zirvəsinə qədər çıxa bilirlər.

Yuxarıda qeyd etdiyimiz sayt, həmçinin yazır ki, İsveç ölkəsi ağacda ev tikilməsi məsələsində xeyli irəliləyib. Orada hər yeni ev özünəməxsus memarlıq əsəri təsiri bağışlayır. İsveç meşələrindəki ağaclarda tikilmiş evlərin heç biri özündən əvvəlki evə bənzəmir. Orada ətrafı şüşələrlə əhatələnmiş evlər də var, kosmos gəmisinə bənzəyən evlər də. Yaponiyada bu evlər ənənəvi yapon evləri kimi inşa edilir. Kanada və Amerikada isə ən böyük ağac evlərinə rast gəlmək mümkündür. Çünki orada irigövdəli ağaclar çoxdur.

Doğrudur, həmin evlər əhli-kef adamların, turistlərin, səyyahların, jurnalistlərin marağına səbəb olur. Ancaq narahatlıq gətirən məsələ odur ki, yüz illər boyu ağacların gövdəsindən min bir məqsədlə istifadə edən insan oğlu indi də onun uca budaqlarını mənimsəyir. Bütün hallarda zərər çəkən ana təbiətdir. Məhz həmin zərərlərin nəticəsidir ki, bu gün dünya başdan-başa ekoloji problemlərlə üz-üzədir.

***İttifaq MİRZƏBƏYLİ***

# İran helikopterinin qəzaya uğraması təsdiqləndi

**İranın sabiq Prezidenti İbrahim Rəisinin helikopter qəzasında ölməsi ilə bağlı istintaq tamamlanıb və bədbəxt hadisə kimi təsbit edilib.**



Bu barədə "Fars" agentliyinə İranın xüsusi xidmət orqanlarındakı mənbə bildirib. "Təhlükəsizlik və kəşfiyyat xidmətləri təfərrüatlı araşdırmanı başa çatdırıb və hadisənin qəza olduğuna dair tam əminlik var", - mənbə söyləyib.

Onun sözlərinə görə, Rəisinin helikopterində sərnişinlərin sayı normadan artıq olduğu üçün nəqliyyat vasitəsi lazımi hündürlüyə yüksələ bilməyib və pis hava şəraitində dağa çırpılıb.

İranın xüsusi xidmət orqanları "Rəisi işi" ilə bağlı 30 min adamı dindirib, bütün ifadələr helikopterin qəzaya uğramasında insan faktorunun olmadığını göstərir.

Xatırladaq ki, mayın 19-da Rəisini daşıyan helikopter İran-Azərbaycan sərhədi yaxınlığındakı Varziqan şəhəri yaxınlığında qəzaya uğrayıb. Göyərtədə prezidentdən başqa xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan, Şərqi Azərbaycan vilayətinin valisi Malik Rəhməti, Təbriz şəhərinin cümə imamı Məhəmməd Əli Əl-Haşim, prezidentin mühafizə rəhbəri, İslam İnqilabı Keşikçiləri Korpusunun general Mehdi Musəvi, həmçinin ekipaj komandiri polkovnik Səid Tahir Mustafavi, ikinci pilot polkovnik Möhsün Dəryanuş və texnik Bəhruz Hadi olub. Qəza nəticəsində bütün sərnişinlər və ekipaj üzvləri ölüb.

# Livandan İsrailə 180 raket atılıb



**Son 48 saat ərzində Livandan İsrail ərazisinə 180-dən çox raket və pilotsuz uçuş aparatı (PUA) atılıb, nəticədə bir israilli yaralanıb.**

Bu barədə TASS İsrail Müdafiə Qüvvələrinin mətbuat xidmətinə istinadən məlumat verib.

Sraqgün 130-dan çox, dünən isə 50-dən artıq raket və PUA atılıb.

"Onların bir çoxu hava hücumundan müdafiə sistemi tərəfindən ələ keçirilib, bəziləri İsrailin yaşayış məntəqələrinə düşərək yanğınlara səbəb olub, bir israilli orta dərəcəli xəsarət alıb", – o qeyd edib.

Ordunun mətbuat xidmətinin nümayəndəsi xatırladıb ki, İsrailin şimalındakı bir çox yaşayış məntəqələrinin sakinləri 10 ay bundan əvvəl təxliyə ediliblər.

***XQ***


"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Zığ Gəmi Təmiri və Tikintisi zavodunun balansındakı liman kranlarının təmiri xidmətlərinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il iyulun 28-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.



**"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir. Cəmiyyətin yeni ünvanı – Bakı şəhəri, AZ 1044, Xəzər rayonu, Binə qəsəbəsi, Heydər Əliyev prospekti 573, "ASG Business Aviation" MMC-nin inzibatı binası, 4-cü mərtəbə.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 179 (30583) 22 avqust 2024-cü il, cümə axşamı

# Arxayınlaşma sindromu

## Bu bəla futbolda da məğlubiyyət gətirir

**Son illər Azərbaycan futbolunun flaqmanına çevrilmiş “Qarabağ” klubunun Razqrad şəhərində yerli “Ludaqorets” üzərində qazandığı 7:2 hesablı qələbəsindən sonra elə bir təəssürat yaranmışdı ki, bundan sonra onun UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksəlməsinə heç bir komanda mane ola bilməz. Bu, təkcə “Qarabağ”ın qatı azarkeşlərinin gəldiyi qənaət deyildi. Bəlkə də, bütün Azərbaycan futbolsevərləri belə düşünür və buna şahid olmaq istəyirdilər. Lakin Avropa futbolunun nüfuzlu yarışmasına gedən yolda “Qarabağ”ın mərhələdən-mərhələyə daha güclü klublarla qarşılaşacağı istisna deyildi. Çempionlar Liqasının qrup mərhələsinə qalxan son pillədə də “Qarabağ”ın bəxtinə məhz belə bir komanda – Xorvatiyanın “Dinamo” Zaqreb klubu çıxmışdı.**





Çərşənbə axşamı gecə saat 23:00-da baş tutan qarşılaşmada doğma meydan amili “Dinamo” Zaqrebin futbolçularına əlavə motivasiya verdiyindən, onlar bu oyunda daha çox hücum edən tərəf kimi görünürdülər. Lakin ilk təhlükəli vəziyyət və hətta qol “Qarabağ”dan gəldi. Artıq oyunun 1-ci dəqiqəsində “Qarabağ”ın kapitanı Abdulla Zubir topu ələ keçirib meydanın mərkəzindən əla hücum təşkil edərək, cərimə meydançasının sol küncünə – Leandro Andradeyə ötürmə etdi. “Qarabağ”lı hücumçu topu ram edərək, qapıya güclü zərbə endirdi. Lakin top rəqibin müdafiəçisi Teofila-Katerinaya dəyib onu yerə sərdi. Müdafiəçiyə dəyib cərimə meydançasının mərkəzinə sıçrayan top hücumçumuz Juninionun qarşısına düşdü. Bu dəfə onun ötürməsindən sonra yenə də zərbə mövqeyinə çıxarılan Leandro ikinci dəfə çərçivəni dəqiq nişan aldı. Top “Dinamo”nun qapısının sağ küncündən tora qovuşdu, lakin Juninio ötürmə zamanı oyundan kənar vəziyyətə düşdüyündən qol hesaba alınmadı.

Bundan sonra oyun daha gərgin xarakter aldı. “Qarabağ”ın qapısına vurulan künc zərbəsi zamanı, Bruno Petkoviçdən cərimə meydançasında əla ötürmə alan 10 nömrəli Martin Baturina qapının sağ küncünə güclü zərbə endirdi. Top “Qarabağ”ın qapı tirinə dəyib meydandan çıxdı. Aydın hiss olunurdu ki, meydan sahibləri qol vurmaq və oyunu öz istədikləri axara salmağa cəhd etsələr də, çox ehtiyatlı oyun sərgiləyirlər. Top “Qarabağ” oyunçularına düşən kimi zaqreblilər dərhal müdafiəyə keçir və meydanın



özlərinə aid hissəsində rəqiblərinə qol vəziyyəti yaratmağa imkan verməməyə çalışırdılar.

Komandalar oyunun 28-ci dəqiqəsinə qədər qarşılaşmada real bir qol vəziyyəti yaratmağa nail ola bilmədilər. Lakin 29-cu dəqiqədə meydanın “Qarabağ”a aid olan hissəsinin sol kənarında ötürmə alan Marko Pyasa yaranmış boşluqdan istifadə edərək, cərimə meydançasına yaxınlaşdı və qapıya güclü zərbə endirdi. Ağdamlıların qapıçısı Fabian Buntiç topu tutmağa müyəssər olmasa da, qaytarmağı bacardı. Lakin onun qaytardığı top təkrar Pyasanın qarşısına düşdü. Zaqreblilərin hücumçusu Marko ikinci cəhdində topu qapının sol küncünə göndərdi və komandasını hesabda irəli çıxardı – 1:0.

Bundan bir neçə dəqiqə sonra komandamız hesabı bərabərləşdirməyə yaxın oldu. 35-ci dəqiqədə sol cinahdan hücuma qoşulan Elvin Cəfərquliyev qapıçı meydançasının yaxın küncünə ötürmə etdi. Zubir rəqibin qapısının yaxın küncünə zərbə endirdi. Lakin “Dinamo”nun qapıçısı qola imkan vermədi.

43-cü dəqiqədə meydanın mərkəzində əla ötürmə alan Juninio rəqiblərin müdafiəçilərindən uzaqlaşaraq, onun üzərinə şığıyan qapıçı ilə təkbətək çıxdı. Lakin bu fürsətdən yararlana bilməyib topu qapı tirinin üstündən vurdu. Sonra Benzia cərimə zərbəsindən topu qapının yaxın küncünə vurdu, top dirəyə dəydi və meydanın ön xəttindən kənara çıxdı.

İkinci hissədə “Qarabağ”, sözün əsl mənasında, rəqibindən daha əzmkar və güclü oyun nümayiş etdirsə də, bir-birinin ardınca ələ düşən qol vəziyyətlərini sağa-sola “xərcləyib”, tablodakı hesaba heç bir dəyişiklik edə bilmədi. 46-cı dəqiqədə Patrik Andrade qapıçı meydançasında aldığı əla ötürməni 2 metrdən qola çevirə bilməyib topu çərçivədən kənara vurdu. 63-cü dəqiqədə rəqibin cərimə meydançasının mərkəzində öz kapitanları Zubirdən ötürmə alan Juninio qapını dəqiq nişan alsa da, qapıçı zərbəni dəf etdi. Bu, bəlkə də, “Qarabağ” komandasının oyunda yaratdığı və vəziyyəti öz xeyrinə dəyişə biləcəyi ən real qol vəziyyəti idi.

72-ci dəqiqədə Benziya qola yaxın oldu. Zaqreblilərin matçda ən yaxşılarından olan qapıçı İvan Nevistiç qola imkan vermədi. Qapısında qol görməyən rəqib əks hücumlarda əlinə düşən fürsətlərdən daha yaxşı istifadə etməyi bacardı. 75-ci dəqiqədə meydanın sağ kənarı boyunca “Qarabağ”ın qapısına doğru şığıyan Baturina bir qədər mərkəzə meyillənərək, cərimə meydançasının sol kənarına əla ötürmə etdi. İkinci hissənin ortalarında meydana çıxan Sandro Kulenoviç topu ustalıqla ram edərək, qapının uzaq küncünə zərbə endirdi - 2:0.

80-ci dəqiqədə zaqreblilər daha bir hücum təşkil etdilər. Oyunun ən fəallarından olan Baturina meydanın sağ yarısından, az qala, qapıçı meydançasının ön xəttinə gözəl və dəqiq ötürmə etdi. Xuan Kordoba ağdamlı müdafiəçini qabaqlayıb qapıya zərbə endirdi. Qapıçı Buntiç komandasını xilas etsə də, topu sağ küncə vurdu. Amma “Qarabağ” üçün bəlaya çevrilən Kulenoviç özünü yetirdi və cərimə meydançasında topu qapı tirinin altından tora qovuşdurdu - 3:0. Oyun elə bu hesabla da başa çatdı.

Etiraf etmək lazımdır ki, Avropa futboluna tanınmış simalar verən “Dinamo” Zaqreb kimi klubla belə arxayın və ehtiyatsız oyun oynamaq əsla məqbul hesab edilə bilməz. Bu, Çempionlar Liqasının qrup mərhələsinə yüksəlmək yolunda ilk qarşılaşma olsa da, 0:3 hesablı məğlubiyyət “Qarabağ”ı çox çətin bir duruma saldı. İndi komandamıza bu nüfuzlu turnirin qrup mərhələsində oynamaq və azarkeşlərinə qürur yaşatmaq üçün doğma meydanda, ən azı, 4 qol vurmaq lazım gələcək. Ümid edək ki, Bakıda keçiriləcək cavab qarşılaşmasında “Qarabağ” öz əzmkar oyunu ilə bu nəticəni əldə edəcək və qrup mərhələsinə yüksələcək.

*İlqar RÜSTƏMOV*
*XQ*

# “Neftçi” heyətini gücləndirir



**"Neftçi" heyətini yeni futbolçu ilə gücləndirir. Adını açıqlamayacağam, amma sol cinah müdafiəçisi olduğunu deyə bilərəm". Bunu "Neftçi" futbol klubunun media üzrə koordinatoru Rüstəm Əfsərli dünən keçirdiyi mətbuat konfransında deyib.**

Koordinator "Neftçi Arena"nın durumu ilə bağlı da açıqlama verib: "Neftçi Arena"nın ot örtüyünün durumu qənaətbəxş deyil, əsasən, yay aylarında problem yaranır, eləcə də təbii hava keçidində problem var. Stadion AFFA-nın balansındadır, amma biz yatırım edirik. 2021-ci ildən sonra yalnız kiçik bərpa işləri olub. Artıq baza istifadəyə verilib. Obyektin ikinci mərtəbəsində iş gedir. Media nümayəndələrini də oraya dəvət edəcəyik. Hazırda ot örtüyü ilə bağlı problem həll olunur. Ciddi irəliləyiş var. Sentyabrın 20-də "Qarabağ"la oyuna qədər tam hazır olacaq".

# “Kəpəz” və “Sumqayıt” cərimələndi

**AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib. Burada Premyer Liqanın yeni mövsümünün III turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**



“Turan Tovuz”la oyununda 4 futbolçusu sarı vərəqə aldığına görə, “Kəpəz” 700 manat cərimə edilib. “Sumqayıt” – “Səbail” qarşılaşması bitdikdən sonra meydançaya kənar şəxslərin daxil olması “kimyaçılar”ı 800 manat xərcə salıb. Bundan başqa, PFL Əsasnaməsinin tələbləri pozulduğuna görə, sumqayıtlılar 500 manat ödəyəcək.

# “Milan” “Barselona”dan 175 milyon avro tələb edib

**İtaliyanın "Milan" klubu portuqaliyalı hücumçusu Rafael Leau üçün İspaniya təmsilçisi "Barselona"dan 175 milyon avro tələb edib. “La Gazzetta dello Sport” xəbər verir ki, 25 yaşlı futbolçunu heyətində görmək istəyən Kataloniya klubu bu məbləği ödəmək fikrində deyil. Tələb edilən yüksək məbləğ üzündən transferin reallaşacağı inandırıcı olmasa da, futbolçu "Barselona"da oynamaq niyyətindədir.**



Qeyd edək ki, Rafael Leau ötən mövsüm İtaliya klubunun heyətində meydana çıxdığı 47 oyunda 15 qol və 14 məhsuldar ötürmə müəllifi olub. "Transfermarkt" portalı futbolçunu 90 milyon avro dəyərində qiymətləndirir.

*Hazırladı:*
*PÜNHAN*
*XQ*

# Günəş çevrəsində ən soyuq məkan

**Kosmos inanılmaz dərəcədə soyuq yerdir. Baza temperaturu, təxminən, mənfi 270,45 dərəcədir. Lakin bu göstərici bütün Günəş sistemində sabit deyil. Planetlər və asteroidlər aralarındakı “boş məkan” isə daha istidir. Bu, Günəş enerjisinin udulması ilə əlaqədardır. Bəs Günəş sisteminin ən soyuq yeri haradadır.**



Bu suala cavab vermək üçün elm adamları Yer kürəsinin xaricindəki temperaturu ölçüblər. Uorvik Universitetinin (ABŞ) astronomiya professoru Con Pollakın dediyinə görə, astronomiyada proseslər heç də sadə olmur. Ümumi məlumatlara əsasən, Günəş enerjisinin təsirinin ən az olduğu yerlər daha soyuq olur. Məsələn, Pluton uzaq olduğuna görə son dərəcə soyuq yerdir. Sən demə, ən soyuq yer bizim yaxınlığımızdadır. NASA-nın son məlumatına görə, ən soyuq yer Ayın cənub qütbündəki “kölgəli kraterlər”dir.

Mütəxəssislərin fikrincə, hər şey ikiqat kölgə ilə bağlıdır. Yəni krater yalnız birbaşa Günəş işığından deyil, həm də radiasiya kimi ikinci istilik mənbələrindən də “qorunur”. Bu, Ayın kənarlarındakı yüksəkliklərin Günəş şüalarının qarşısını kəsməsi səbəbindən baş verir. Hesablamalar düzgündürsə, belə yerlərdə temperatur mənfi 248,15 dərəcəyə çata bilər. Bu göstərici uzaq Plutonda mənfi 232,75 dərəcədir.

*S.ELAY*
*XQ*

# Yağışsız, lakin dumanlı bir gün

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 22-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**



Cənub-şərq küləyi əsəcək. Gecə 21-26° , gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70 , gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında gün ərzində əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 32-37°, dağlarda gecə 13-18°, gündüz 20-25° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

ADPU-nun biologiya və onun tədrisi texnologiyası kafedrasının əməkdaşları kafedranın dosenti

**KƏMALƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Kamil və Əbülfəz Atakişiyevlərə ataları

**ATAKİŞİ ATAKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3685
SİFARİŞ 1867
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00